

Milli azadlıqdan
şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 yanvar 2026-cı il, şənbə
№ 010 (7077)
Qiyməti 60 qəpik


# Sənayeləşmədə yeni dövr



Bax səh. 2

# Tarixi İpək Yolundan Orta Dəhlizədək...

Bax səh. 3

## Türk dövlətlərinin diasporu əlaqələri gücləndirir

Hazırda dünyada mürəkkəb qlobal proseslərin davam etməsi türk dünyasının birliyinin daha da güclənməsini zəruri edir. Əsrlər boyu dünya tarixində bəşəri dəyərləri ilə özünəməxsus yer tutmuş türk xalqları məhz bu gün mürəkkəb beynəlxalq münasibətlər və qloballaşma şəraitində öz mövcudluğunu qoruyub saxlamaqda, həmçinin bəşəriyyətin inkişafına, inteqrasiya və əməkdaşlığa xüsusi töhfələr verməkdədirlər. Tarixin bütün dövrlərində ən müxtəlif sosio-mədəni, etno-mədəni və etno-siyasi proseslər və hadisələrin əsas məkanı qismində çıxış edən Avrasiyada türk xalqları müsbət regional və beynəlxalq dəyişikliklərə səbəb olan proseslərin baş verməsində özünəməxsus rol oynayıblar.

Dünyanın mövcud geosiyasi şərtləri fonunda türk dövlətləri arasında əməkdaşlıq münasibətləri bu gün daha vacib xarakter daşıyır. Xüsusilə, Avrasiyada mühüm geostrateji proseslərin baş verdiyi zamanda türk dövlətləri arasında çoxşaxəli, səmərəli və uğurlu əlaqələrin mövcud olması regional təhlükəsizlik, beynəlxalq inteqrasiya kontekstində çox mühüm əhəmiyyətə malikdir. XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı (TDT) da öz gücünü artırmaqdadır. Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi, geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir. Türk dünyası ortaq tarix, dil və mədəniyyətə malik 7 müstəqil dövlət...

Bax səh. 5




## Davos-2026: qlobal risklər dövründə dünya nizamının yenidən yazılması

## “ASAN xidmət” dost Pakistanda

Bax səh. 3

## Paris yenə büdcəsiz qaldı...

Bax səh. 7

## Tənhalıqdan qurtuluş

Bax səh. 7

## “Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar”

Yanvarın 16-da ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş “Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar” adlı beynəlxalq konfrans keçirilib.

Tədbirdə Pəncab əyalətinin İnsan Hüquqları və Azlıqlar üzrə naziri Rameş Singh Arora və digər rəsmilər, eləcə də siqh icmasının Kanada, Böyük Britaniya və ABŞ-dakı nüfuzlu nümayəndələri, beyin mərkəzlərinin rəhbərləri, xarici universitetlərin insan hüquqları və etnik azlıqlar sahəsində fəaliyyət göstərən alimləri, həmçinin Hindistan hökumətinin repressiv, irqçi və təqib siyasətinin birbaşa qurbanı olmuş şəxslər iştirak edirlər.

Tədbirdə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, beynəlxalq hüquqa və insan hüquqları prinsiplərinə tam uyğun şəkildə fəaliyyət göstərən Bakı Təşəbbüs Qrupu qlobal dekolonizasiya hərəkatının beynəlxalq platformasına çevrilib. O bildirib ki, son iki il ərzində təşkilat dünyanın müxtəlif ölkələrində 30-dan çox yüksəksəviyyəli beynəlxalq konfrans keçirib. Bu konfranslar siyasi liderləri, alimləri, hüquq mütəxəssislərini, müstəqillik hərəkatlarının nümayəndələrini, vətəndaş cəmiyyəti institutlarını və BMT-nin xüsusi məruzəçilərini bir araya gətirib. Eyni zamanda, BTQ indiyədək...

Bax səh. 4

## Aİ müstəqil müdafiə mexanizmi yaradır




Bax səh. 6

# Sənayeləşmədə yeni dövr

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmana əsasən, Gəncə şəhəri və Şəmkir rayonunun ərazisində Qərb Sənaye Parkı yaradılacaq. Yeni Sənaye Parkı "Azəralüminium" MMC-nin istifadəsindəki sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı 81,8 hektar torpaq sahəsində, eləcə də Şəmkir rayonunun Könüllü kəndi ərazisində yerləşən kənd təsərrüfatı təyinatlı 100 hektar torpaq sahəsində yerləşəcək. Parkın yerləşəcəyi ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun yaradılması üçün zəruri tədbirlər görüləcək. Azərbaycanda sənayeləşmə təkcə iqtisadi siyasətin tərkib hissəsi kimi deyil, həm də uzunmüddətli dayanıqlı inkişafın təməli kimi müəyyən edilib. Bu hədəf strategiyasına uyğun olaraq, ölkəmizdə yeni mərhələyə daxil olmuş sənayeləşmə milli istehsalın artması ilə yanaşı, həm də onun səmərəliliyinin və rəqabət qabiliyyətinin güclənməsinə töhfə verməkdədir. Son illərdə sənaye zonalarının inkişafını təmin edən investisiya təşviqləri sayəsində müasir texnologiyaların tətbiqi, ən qabaqcıl innovasiya infrastrukturunun qurulması və ixracı stimullaşdıran güclü ekosistemlərin yaradılması geniş vüsət almaqdadır. Bu baxımdan Qərb Sənaye Parkının yaradılması ölkə sənayesinin yeni qollarından biri olmaqla milli sənaye istehsalına dəyər qatacaq müəssisələrdən biri hesab edilə bilər. Azərbaycanın 10-cu sənaye parkı olmaqla, adıçəkilən sənaye zonası respublikamızda sənayeləşmənin əsas mərkəzi ünvanlarından birinə çevriləcək.**



## Qərb Sənaye Parkı qeyri-neft istehsalının əsas sütunlarından birinə çevriləcək

Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafının təmin edilməsidir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət və dövlətin təşviqedici qərarları sayəsində rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiq olunduğu güclü sənaye zonaları bloku formalaşıb. Hacıqabul Sənaye Məhəlləsi-

## Sənaye parkları ixracın artmasını təşviq edir

nin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması və digər sənaye zonalarında yeni rezidentlərin qeydə alınması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Həmçinin cari ilin ortalarında fəaliyyətə başlayan "Laçın Aqro-Sənaye Parkı"ndakı "PIRSHAGHI" və "LATIFA" fabrikləri ölkəmizin sənaye zəncirinə qoşulmaqla ölkə iqtisadiyyatına reinteqrasiyanı təmin etməkdədir.

## 57 milyard manatdan çox sənaye məhsulu istehsal olunub





Ümumilikdə, respublikamızda fəaliyyət göstərən sənaye parklarında potensialın artması qeyri-neft sənayesinin inkişafını təmin etməklə, bu sektorun əsas əlavə dəyəri formalaşdıran fiskal sahə olduğunu göstərir. Bu ardıcıl xarakter daşıyan sənayeləşmə strategiyasının nəticəsidir ki, sənayenin ÜDM-də və qeyri-neft ixracında payı yüksəlir. Son 5 ildə Azərbaycanın sənaye zonalarına 750 milyon manatdan çox investisiya yatırılıb, 12,5 milyard manatlıq məhsul satışı həyata keçirilib və 4 milyard manatdan çox sənaye məhsulu ixrac edilib. Sənaye zonalarında istehsal edilən məhsullar 50-dən artıq ölkəyə ixrac olunur.

2025-ci ildə yanvar-noyabr aylarında ölkəmizdə 57,5 milyard manatlıq sənaye məhsulu istehsal edilib, qeyri neft-qaz sektorunda istehsal 4,8 faiz artıb.Yəni bu sektorda əlavə dəyərin əsas hissəsi qeyri-neft sənaye sektorunda yaradılıb və sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

Sənaye parkları yerli sahibkarlar və xarici investorlar arasında həm də müştərək iqtisadi zəncirin qurulmasını təmin edir. Bütün bunları nəzərə aldıqda Qərb Sənaye Parkının sənaye inkişafında xüsusi əhəmiyyəti olduqca əhəmiyyət kəsb edir. Gəncə Azərbaycanın ikinci sənaye bölgəsi kimi bir neçə sənaye müəssisəsinin, Avtomobil Zavodunun, istehsal və emal komplekslərinin, yüngül və yeyinti sənayesi müəssisələrinin fəaliyyət göstərdiyi ölkə əhəmiyyətli iqtisadi resurs zonasıdır. Eləcə də Şəmkir rayonu ölkəmizin emal sənayesi sektorunda son illər öz potensialını artıran və yeni müəssisələrin qurulması ilə inkişafa töhfə verən bölgələrdən biridir. Bu baxımdan bu bölgədə Qərb Sənaye Parkının yaradılması həmin regionda həm infrastrukturların müasirləşdirilməsi, həm də istehsal-emal və xidmət tipli müəssisələrin açılması üçün də yeni mərhələnin əsasını qoyacaq.

## Hədəf qeyri-neft sənayesində ixracın payını 25 faizə çatdırmaqdır



Qərb Sənaye Parkı istehsal və emal xidmətlərinin ixtisaslaşmış sahəsi olmaqla, Azərbaycanın sənaye arxitekturasında yeni sütunlardan birinə çevriləcək. Park ölkəmizin iqtisadi imkanlarının daha da artması, qeyri-neft sektorunun davamlı inkişafı və qeyri-neft resurslarının tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edəcək. Park ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasına əlavə güc qatacaq, ümumi sənaye ixracına qoşulmaqla qeyri-neft sənayesinin inkişafına da mühüm töhfələr verəcək.

"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində sənayenin inkişafı prioritet olaraq müəyyənləşdirilib. Dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Sənədə əsasən, qeyri-neft-qaz sənayesi hər il orta hesabla 8,4 faiz artacaq, sənaye zonalarının qeyri-neft sənaye istehsalında payı 15 faiz, ixracda payı isə 25 faiz olacaq.

Dövlətin institusional, iqtisadi və stimullaşdırıcı dəstəyi isə Azərbaycanın yeni sənaye transformasiyasına keçidi sürətləndirməklə, qabaqcıl texnologiyalar və təcrübə mübadiləsinə imkan verən qlobal dəyər zəncirinə inteqrasiyasını təmin edəcək. Bu, öz növbəsində qeyri-neft iqtisadiyyatının aparıcı artım mənbəyi kimi sənayenin aparıcı mövqeyini daha da möhkəmləndirəcək.

***E. CƏFƏRLİ***

# 35-ci Ali Səviyyəli Toplantıda nələr müzakirə olunub?

İsveçrənin Cenevrə şəhərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin BMT-nin Cenevrə Ofisi ilə tərəfdaşlıq çərçivəsində 35-ci Ali Səviyyəli Toplantısı keçirilib. Toplantı "Çoxqütblü parçalanmalar və transformasiya dövründə multilateralizmin yenidən formalaşdırılması" mövzusuna həsr olunub.

Yüksək səviyyəli beynəlxalq platforma çərçivəsində qlobal idarəetmənin gələcəyi, çoxtərəfli institutların dəyişən dünya nizamına uyğunlaşdırılması, iqlim böhranı və dayanıqlı inkişaf, süni intellekt və texnoloji transformasiya, sülh və təhlükəsizlik, humanitar çağırışlar, miqrasiya və qlobal səhiyyə, inklüziv iqtisadiyyatlar, qadınların liderlikdə rolu, həmçinin qlobal mənzil və şəhərsalma problemləri ilə bağlı geniş və əhatəli müzakirələr aparılıb. Eyni zamanda, müzakirələr zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçiriləcək XIII Qlobal Bakı Forumunun hazırlıq məsələlərinə xüsusi diqqət yetirilib. Bununla yanaşı, 17-22 may tarixlərində Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı məsələlər də müzakirə olunub.

Toplantıda 30-dan artıq ölkəni təmsil edən 50-dən çox yüksək səviyyəli beynəlxalq iştirakçı - sabiq dövlət və hökumət başçıları, BMT qurumlarının rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri və tanınmış ekspertlər iştirak ediblər. Açılış mərasimində BMT-nin Cenevrə





Ofisinin Baş direktoru Tatyana Valovaya, Ümumdünya Ticarət Təşkilatının Baş direktoru Ngozi Okonjo-İveala, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Rebeka Qrinspan, Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Dorin Boqdan-Martin, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax, Ərəb Liqasının sabiq Baş katibi və Misirin sabiq xarici işlər naziri Əmr Musa, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, eləcə də Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev iştirak ediblər. Bununla yanaşı, açılış mərasimi çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Frayberqanın xüsusi müraciəti səsləndirilib.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə BMT-nin Cenevrə Ofisi arasında mövcud institusional əməkdaşlıq çərçivəsində hər il keçirilən bu ali səviyyəli toplantılar qlobal çağırışların müzakirəsi üçün mühüm beynəlxalq platforma rolunu oynayır. Bundan əvvəlki - 34-cü Ali Səviyyəli Toplantı da aktual mövzularla diqqət mərkəzində olmuşdu. Belə ki, sözügedən tədbir ötən ilin 23-26 sentyabrında BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində baş tutub. "Multilateralizm dönüm nöqtəsində: Çağırışlar və sülhə aparan yollar" mövzusunda keçirilən toplantıda bir sıra ölkə rəhbərləri, sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri bir araya gələrək qlobal əməkdaşlıq və multilateralizmin aktual çağırışlarını müzakirə ediblər. Bu toplantı BMT Baş Assambleyası çərçivəsində keçirilən paralel tədbirlər arasında ən böyük tədbir hesab olunaraq 50-dən çox ölkədən yüksəksəviyyəli nümayəndələrin, o cümlədən 25-dən çox sabiq və indiki prezidentin, eləcə də 10-dan çox sabiq və indiki Baş nazirin iştirakı ilə keçirilmişdi.

Yeri gəlmişkən, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hər il keçirilən Qlobal Bakı Forumunun təşkilatçısı qismində də çıxış edir. Mərkəz bundan əlavə, digər beynəlxalq tədbirlərin təşkilatçısı və tərəfdaşı kimi iştirak edir. Buna nümunə olaraq, ötən il 14-15 dekabrda Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının (UNAOC) 11-ci Qlobal Foru7eni dövrünə doğru" şüarı ilə keçirilən foruma Nizami Gəncəvi Beynəlxalq Mərkəzi edib. Forum müxtəlif sivilizasiyalar arasında qarşılıqlı anlaşma, dialoq və əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş yüksəksəviyyəli platforma kimi dünya liderlərini, siyasətçiləri və ekspertləri bir araya gətirib.

Xatırladaq ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Mərkəzin önəmli tədbirlərə ev sahibliyi etməsi, ildən-ilə iştirakçıların sayında nəzərəçarpan artım ona olan diqqətin ifadəsi kimi qiymətləndirilir.

***N.BAYRAMLI***

# “ASAN xidmət” dost Pakistanda

Ardıcıllıqla həyata keçirilən siyasətin nəticəsi olaraq Azərbaycanın inkişafı elə yüksək səviyyəyə çatıb ki, artıq respublikamız dünyaya intellektual məhsul ixracını da uğurla həyata keçirir. Ayrı-ayrı ölkələrdə “ASAN xidmət”ə marağın artması bunun əyani təsdiqidir. Bu günlərdə “ASAN xidmət”in sorağı daha bir uzaq ünvandan - bu dəfə dost Pakistandan gəlib. Bu ölkənin İslamabad şəhəri dünyada “ASAN xidmət” mərkəzinin fəaliyyətə başladığı növbəti ünvan olub. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, İslamabadda baş tutan açılış mərasimdə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Pakistan hökumətinin üzvləri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak ediblər. Tədbirdə vurğulanıb ki, 2025-ci il sentyabrın 10-da Pakistan İslam Respublikasının Baş nazirinin iştirakı ilə “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Pakistan İslam Respublikasında “ASAN xidmət” təcrübəsinin tətbiqi istiqamətində əməkdaşlığa dair Saziş” imzalanıb. Prezident İlham Əliyevin tapşırığına əsasən Dövlət Agentliyi tərəfindən “ASAN xidmət” təcrübəsinin Pakistanla paylaşılması istiqamətində əməkdaşlıq həyata keçirilib. Mərkəzin qurulması istiqamətində Pakistan tərəfinə zəruri dəstək göstərilib.








## Azərbaycanın intellektual brendi

Azərbaycan dövləti Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkənin müasirləşdirilməsini özünün strateji hədəflərindən biri kimi müəyyənləşdirib. “ASAN xidmət” modeli də bu siyasətin real həyatda uğurlu təzahürüdür. Respublikamızda dövlət başçısının müvafiq Fərmanı əsasında 2012-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və onun tabeliyində olan “ASAN xidmət” mərkəzləri fəaliyyətə başlayıb. Dövlət idarəçiliyi sahəsində islahatların tərkib hissəsi kimi yaradılan “ASAN xidmət”in respublikamızda yüksək populyarlıq qazanması üçün böyük zaman kəsiyi lazım gəlməyib. Bakıda pilot layihə kimi əsası qoyulan “ASAN xidmət” mərkəzləri özünü doğruldub və respublikamızda qısa müddətdə bu şəbəkənin coğrafiyası regionlara doğru genişlənib. Hazırda Azərbaycanda 28 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Vətəndaşlar paytaxt Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən və digər ünvanlarda da “ASAN xidmət” mərkəzlərinin fəaliyyətindən bəhrələnirlər.

“ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, “ASAN Kommunal” mərkəzlərində isə “Azərişıq” ASC, “Azərsu” ASC və “Azəriqaz” İB tərəfindən 55 növ xidmət göstərilir. İndiyədək “ASAN xidmət” mərkəzlərinə 92 milyondan çox vətəndaş müraciət edib. Paytaxtda və regionlarda hər gün “ASAN xidmət” mərkəzlərinə təxminən 40 min vətəndaş müraciət edir və onların məmmunluq səviyyəsi 99 faizin üzərində olur. Eyni zamanda, regionlarda 10 səyyar “ASAN xidmət” avtobusu və səyyar “ASAN qatar” vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir.



Çox doğru olaraq “ASAN xidmət” mərkəzləri Azərbaycanın intellektual brendi kimi dəyərləndirilir. Burada vətəndaşlara müxtəlif xidmətlər innovativ texnologiyalardan geniş istifadə edilməklə göstərilir. Nəticədə, şəffaflıq tam təmin olunur və vətəndaş-məmur təmasları aradan qalxır. “ASAN xidmət” mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri üzərində qurulub.

## Dünyada “ASAN xidmət”ə artan maraq

Dünyada “ASAN xidmət” modelinə marağın artması Azərbaycanın böyük uğurudur. İndiyədək əlçatanlığı ilə yüksək vətəndaş məmnunluğu yaradan bu struktur bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunub. Artıq ayrı-ayrı ölkələrdə də bu modelin tətbiqinə başlanıb. Azərbaycanın “ASAN xidmət” modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. Perspektivdə “ASAN xidmət” brendinin dünyada əhatə edəcəyi coğrafiyaların daha da genişlənəcəyi gözlənilir. Bunu son vaxtlarda Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrı-ayrı ölkələrdən əməkdaşlıqla bağlı artan müraciətlər də təsdiqləyir. Beynəlxalq əməkdaşlığa dair son nümunələrdən biri kimi İndoneziya və Azərbaycan arasında ötən ilin dekabr ayında onlayn formatda baş tutan dövlət xidmətləri üzrə Simpoziumu göstərmək mümkündür. Həmin sənədlərə uyğun olaraq hazırda İndoneziya Respublikasında “ASAN xidmət” təcrübəsi əsasında yaradılmış 300-dən çox Dövlət Xidmət Mərkəzi fəaliyyət göstərir.

Artıq Avropa İttifaqının üzv dövləti olan Rumıniya da “ASAN xidmət” modelinə böyük maraq göstərir. Ötən ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Rumıniya Hökumətinin Baş Katibliyinin dəvəti əsasında bu ölkəyə səfəri baş tutub.

Bundan başqa Sudan Respublikasının ölkəmizdə səfərdə oolan rəsmiləri də “ASAN xidmət” mərkəzlərinin təcrübəsinin öz ölkələrində tətbiqində maraqlı olduqlarını ifadə ediblər.

## Dost Pakistana Azərbaycanın hədiyyəsi

“Pakistan ASAN xidmət” mərkəzində ilkin mərhələdə 12 dövlət qurumu tərəfindən 64 xidmətin həyata keçirilməsi planlaşdırılır. Mərkəzdə “ASAN xidmət” standartları, ASAN könüllük proqramı və ASAN-ın innovativ həlləri tətbiq edilir. Mərkəzlə tanışlıqdan sonra Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev “Pakistan ASAN xidmət” mərkəzinin gələcək inkişaf konsepsiyası, innovativ həllər və Azərbaycanın DOST konsepsiyası ilə bağlı Pakistan nümayəndə heyəti üçün təqdimat edib.

Baş nazir Məhəmməd Şahbaz Şərif “ASAN xidmət” modelinin Pakistanda tətbiqinə göstərdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü ifadə edib. “ASAN xidmət”i dövlət xidmətlərinin göstərilməsində mütərəqqi və innovativ bir model kimi qiymətləndirən Baş nazir vurğulayıb: “Ötən il qardaş ölkəyə rəsmi səfərim zamanı Bakıda “ASAN xidmət” mərkəzini ziyarət etdik. Həmin mərkəz həqiqətən fenomenal idi, son dərəcə təsirli və nümunəvi bir təcrübə təqdim edirdi. Bunun ardından mən müraciət etdim ki, ilk mərhələdə İslamabadda oxşar bir mərkəz yaradılsın. Bu gün artıq buradayıq. “ASAN xidmət” rəhbərliyi və nümayəndə heyəti də buradadır. Onlar son dərəcə böyük dəstək göstəriblər. Bu əməkdaşlıq misilsizdir. Bütün bu texnologiya Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan tərəfindən bizə hədiyyə edilib. Fürsətdən istifadə edərək, Prezidentə bir daha dərin təşəkkürümü bildirmək istəyirəm. Mərkəz bu gündən fəaliyyətə başlayıb və inşallah, biz onu genişləndirəcək, Pakistanın digər bölgələrində də yeni mərkəzlər yaradacağıq”.

Xatırladaq ki, 30 ölkə və beynəlxalq təşkilatla “ASAN xidmət” modelinin ixracına dair müqavilə bağlanıb. Artıq 6 ölkədə - İndoneziya, Özbəkistan, Efiopiya, Uqanda və Əfqanıstandan sonra Pakistanda da “ASAN xidmət” modeli əsasında xidmət mərkəzləri fəaliyyət göstərir.

Pakistan dünyanın ikinci ən böyük müsəlman ölkəsidir və bu baxımdan “ASAN xidmət” modelinin burada tətbiqi həm strateji tərəfdaşlıq baxımından, həm də eyni dəyərləri bölüşən ölkələr arasında əməkdaşlığın güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

*Mübariz FEYİZLİ*

# Tarixi İpək Yolundan Orta Dəhlizədək...







Bu günlərdə Vyanada “Türk həftəsi” çərçivəsində “İpək Yolundan Orta Dəhlizədək: nəqliyyat və ticarətin asanlaşdırılması yolu ilə bağlılığın təşviqi” mövzusunda ATƏT-in mənzilqərargahında dəyirmi masa keçirilib.

Tədbir Türk Dövlətləri Təşkilatının (TDT) sədrliyi olaraq Azərbaycan Respublikasının və digər üzv ölkələrin ATƏT yanında daimi nümayəndəliklərinin təşkilatçılığı, TDT və ATƏT Katibliyinin dəstəyi ilə reallaşıb.

Dəyirmi masada ATƏT-in Baş katibi Feridun Hadi Sinirlioğlu və TDT-nin Baş katibi Kubanıçbek Ömürəlıyev açılış nitqi ilə çıxış edərək, nəqliyyat bağlılığı və ticarətin asanlaşdırılmasının regional əməkdaşlığın, iqtisadi dayanıqlığın və davamlı inkişafın gücləndirilməsində əhəmiyyətini vurğulayıblar.

**Türk dünyasını və qitələri birləşdirən tarixi İpək Yolunun bərpasına Azərbaycanın həssas yanaşması**

“Türk həftəsi” çərçivəsində belə bir dəyirmi masanın təşkil edilməsi təsadüfi deyil. Tarixi İpək Yolu geniş türk coğrafiyasında, eləcə də qitələr arasında ticarət və mədəni əlaqələrin formalaşmasında böyük rol oynayıb. Bu gün Orta Dəhliz həmin marşrutun müasir davamı olaraq Avropa ilə Asiyanı etibarlı və səmərəli əlaqə ilə birləşdirir.

Tarixi İpək Yolunun üstündə yerləşən Azərbaycan müstəqilliyinin ilk illərindən bu marşrutun bərpasına həssas yanaşma sərgiləyir. Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfransın yekununda Avropa İttifaqının (Aİ) TRASEKA proqramı əsasında “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib.

Bundan başqa, Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən “İpək Yolu İqtisadi Kəməri” layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu” imzalanıb.

Respublikamız Orta Dəhlizin təşviqi məqsədi ilə dəhliz üzərində yerləşən ölkələrlə sıx əməkdaşlıq həyata keçirir. Qeyd edək ki, 2022-ci il noyabrın 22-də Azərbaycan, Qazaxıstan və Türkiyə arasında “Orta Dəhliz”in inkişafı üzrə 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsi imzalanıb. 2024-cü il iyulun 3-də qəbul olunmuş “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” Orta Dəhlizin inkişafı istiqamətində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

**Hazırkı reallıqlar şəraitində Orta Dəhlizin artan rolu**

Azərbaycanın, TDT-yə üzv olan digər ölkələrin nəqliyyat sahəsinə cavabdeh qurumlarının nümayəndələrinin, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (İRU), TDT-nin Logistika Mərkəzləri və Yükdaşıyıcıları Alyansının rəhbərlərinin, Dünya Bankının, eləcə də Hamburq limanının təmsilçilərinin çıxış etdikləri dəyirmi masada hazırkı iqtisadi mühitdə Orta Dəhlizin artan əhəmiyyətinə xüsusi vurğu edilib. Həqiqətən də, uzanan Rusiya-Ukrayna müharibəsi və digər geosiyasi gərginliklər fonunda başqa marşrutlar üçün ciddi təhdidlər yaranıb. Belə bir şəraitdə türk dövlətlərinin də daxil olduğu Xəzər - Qara dəniz hövzələri coğrafiyasında və bütövlükdə Avrasiyada Orta Dəhlizdən kənarda intensiv, davamlı və təhlükəsiz daşımaları təsəvvür etmək mümkün deyil.

Tarixi İpək Yolunun davamı olan Transxəzər marşrutu (Orta Dəhliz) Çin Xalq Respublikasını Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə vasitəsilə Avropa İttifaqı ilə birləşdirən və Şimal marşrutuna (Çin-Qazaxıstan-Rusiya-Belarus-Avropa), eləcə də Süveyş Kanalı vasitəsilə dəniz yoluna alternativ olan multimodal nəqliyyat dəhlizidir. Orta Dəhliz əsas etibarilə dəmir yolundan (4256 km) və dənizdən keçən hissədən (508 km) ibarətdir və Çin-Qazaxıstan sərhədindən başlayaraq, Qazaxıstandan keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycan və Gürcüstanadək davam edir. Gürcüstandan isə bu dəhliz iki istiqamətdə Türkiyə vasitəsilə Avropaya, Qara dəniz vasitəsilə isə Ukrayna, Rumıniya və Bolqarıstana uzanır.

Məhz respublikamızın fəallığının, davamlı təşviq siyasətinin nəticəsidir ki, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər dövlətlər Orta Dəhlizin inkişafını hədəfləyən platformalarda birləşiblər. Bu platformalar çərçivəsində uzlaşdırılmış fəaliyyətlər Orta Dəhlizin cəlbediciliyinin artmasına güclü impuls verir. 2023-cü il noyabrın 23-də təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Plan”ı ölkəmizin tranzit potensialından daha səmərəli istifadəyə imkanlar yaradır. Orta Dəhliz üzrə yükdaşımaların artması məqsədilə yüklərin həm dəmir yolları, həm də avtomobil yolları ilə sürətli və səmərəli şəkildə daşınması təmin edilir.

**Azərbaycan ərazisində yaradılan müasir nəqliyyat infrastrukturu**

Tədbirdə Xəzər dənizi regionu üzrə və onun hüdudlarından kənarda daşımaların və ticarətin asanlaşdırılması üçün TDT-yə üzv ölkələrinin milli və regional perspektivləri təqdim edilib, son illərdə yük axınında artım müşahidə olunan Orta Dəhliz boyunca ticarət və nəqliyyat əməkdaşlığında müsbət təcrübələr bölüşülüb.

Dəyrimi masada Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəqliyyat siyasəti şöbəsinin müdiri Fariz Əliyev çıxış edərək ölkəmizin geostrateji yerləşməsi, Orta Dəhlizin potensialı və onun inkişafında ölkəmizin mühüm rolu, Azərbaycan ərazisindən keçən yüklərin həcmi, ölkəmiz tərəfindən nəqliyyat sahəsində həyata keçirilən beynəlxalq əhəmiyyətli infrastruktur layihələri və Orta Dəhlizin potensialının artırılması istiqamətində görülən işlər, dəhliz boyunca yerləşən ölkələrlə əməkdaşlıq barədə ətraflı danışıb.

Həqiqətən də, Azərbaycan tarixi İpək Yolunun bərpasına, o cümlədən də Orta Dəhlizin inkişafına və funksionallığının artmasına yalnız siyasi iradə nümayiş etdirməklə kifayətlənmir, həmçinin praktiki müstəvidə önəmli layihələr həyata keçirir. Ölkə ərazisində vacib nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın Orta Dəhlizin inkişafına verdiyi çox mühüm töhfədir. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəsinə uyğun olaraq respublikamız Orta Dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yönəldib.

Azərbaycanın Orta Dəhlizin inkişaf etdirlməsinə verdiyi töhfələrdən bəhs edərkən iki layihənin önəmini ayrıca qeyd etmək lazımdır. Bunlardan biri 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Azərbaycanın təşəbbüsü və moderatorluğu ilə ərsəyə gələn BTQ region ölkələrinin tranzit potensialının artmasına yeni imkanlar yaradıb. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirlməsi layihəsi artıq tamamlanıb. Genişləndirmədən sonra BTQ-nin illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona çatdırılıb.

Güclü dövlət olan Azərbaycan həmçinin liderlik keyfiyyətləri nümayiş etdirərək Xəzərdə ən böyük ticarət limanının inşasına nail olub. Hazırda Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır.

Görülən tədbirlər nəticəsində son üç ildə Orta Dəhliz üzrə tranzit yük həcmləri təxminən 90 faiz artıb ki, bu da onun səmərəliliyini və artan aktuallığını nümayiş etdirir. Bununla yanaşı, dəhliz üzrə yük daşımaların tranzit müddəti 15 günə enməklə əhəmiyyətli dərəcədə azalıb.

Daha bir mühüm məqama da diqqət çəkmək istərdik. Söhbət Zəngəzur Dəhlizinin (Tramp marşrutu) yaradılmasından gedir. Orta Dəhlizin bir qoluna çevriləcək bu marşrutun yaradılması qalib Azərbaycanın təşəbbüsü əsasında gündəmə gəlib. Sonrakı mərhələdə yenə də ölkəmizin, şəxsən Prezident İlham Əliyevin davamlı səyləri sayəsində yeni nəqliyyat bağlantısının yaradılması istiqamətində böyük yol keçilib və ötən il avqustun 8-də Vaşinqtonda bununla bağlı prinsipial razılaşma əldə olunub. Bütövlükdə, yeni marşrut optimal regional bağlantını təmin edəcək. O cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat əlaqəsi yaranacaq, Ermənistan blokadadan çıxacaq, Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq. Qeyd edək ki, respublikamızın ərazisində Şimal - Cənub marşrutu ilə Orta Dəhlizin optimal bağlantısı təmin edilib. Beləliklə də İran və Rusiya da yeni marşrutdan faydalana biləcəklər.

*Mübariz ABDULLAYEV*

# Bankların mənfəəti tarixi rekorda çatsa da...




## Bəzi bankların yüksək xərcləri ciddi risklərdən xəbər verir

**Azərbaycanda fəaliyyət göstərən banklar 2025-ci ilin 4-cü rübü üçün maliyyə nəticələrini açıqlayıblar. Ötən ilin yekununda bank sektoru tarixi maksimum nəticə əldə edərək ili 1 milyard 164,5 milyon manat həcmində xalis mənfəətlə başa vurub. Bu, 2024-cü illə müqayisədə təqribən 11,5 faiz artım deməkdir. Ümumilikdə, ötən il 5 bank 921,28 milyon manat xalis mənfəət əldə edərək gəlirlərini 15 faiz artırmağa nail olub. Bank sektorunda ən çox mənfəət əldə edən bank 335,7 milyon manatla Beynəlxalq Bank olub. Mənfəətini ən çox artıran digər bank "Kapital Bank" olub, onun xalis mənfəəti əvvəlki ilin eyni dövrü ilə müqayisədə 128,5 milyon manat artaraq 315 milyon manata çatıb. Eyni zamanda, "PAŞA Bank" öz mənfəətini 148 milyon, Xalq Bank 61 milyon, Bank Respublika 60 milyon, "AccessBank" 49 milyon, "Yelo Bank" 31 milyon, "Bank of Baku" 30 milyon manat artırıb. "Unibank" isə mənfəətini 25 milyona, "Ziraat Bank Azərbaycan" 23 milyona, "Premium Bank" 11 milyona, "Rabitabank" isə 11 milyon manata çatdıra bilib. Bank sektorunda ötən il ən zəif likvidlik və gəlir göstəriciləri nümayiş etdirən banklar "AFB Bank", "Bank BTB" və "TuranBank" olub. Onların mənfəətləri 1-4 milyon manat arası təşkil edib ki, bu da ölkə üzrə cəmi mənfəət portfelinin 0,1 faizi deməkdir.**

### "Ziraat Bank Azərbaycan"ın xərcləri yüksəlib

Mənfəətini artıran banklar arasında da risk problemləri qalan maliyyə institutları az deyil. Məsələn, Türkiyənin ölkəmizdəki bank vahidi olan "Ziraat Bank Azərbaycan" mənfəətini artırsa da, xərclər və risklər yüksək olaraq qalır. Bank 2025-ci ili 23,3 milyon manat xalis mənfəətlə başa vursa da, maliyyə hesabatı bankın dayanıqlılığı ilə bağlı bir sıra risklərin qaldığını göstərir. Belə ki, bankın xalis faiz gəlirləri 31,5 faiz artaraq 47,8 milyon manata çatsa da, faiz xərcləri 2 dəfə yüksəlib və 36,6 milyon manat təşkil edir. Depozitlər üzrə ödənişlərin 94 faiz artması maliyyə resurslarının bahalaşdığını göstərir. Bu, gələcək dövrdə faiz marjasının sıxılma riski yaradır. Eləcə də bankın kredit portfeli 44,8 gaiz böyüyərək 766,9 milyon manata çatıb. Ən böyük artım biznes kreditlərində qeydə alınıb. Bu dinamika kredit riski baxımından əlavə yük yaradır. Vaxtı keçmiş kreditlər də artmaqdadır. Bankın öhdəlikləri isə 53,3 faiz artaraq 1 milyard 207 milyon manata çatıb. Xüsusilə, maliyyə institutlarının depozitləri 6 dəfəyə yaxın artıb. Bu, bankın bahalı resurslara bağlılığını artırır və likvidlik riskini gücləndirir.

Bir neçə bank isə ümumiyyətlə, ötən il maliyyə likvidliyi baxımından geriləyib.




### "Bank Melli İran"ın mənfəətində geriləmə baş verib

Bankların mənfəəti ilə zərər göstəriciləri də az olmayıb. "Bank Melli İran"ın xalis mənfəətində 3,3 milyon manatlıq geriləmə baş verib. Belə ki, İran bankının Bakı filialının 2025-ci ildə xalis mənfəəti əvvəlki illə müqayisədə 3 milyon 305 min manat və ya 42,8 faiz azalaraq 4 milyon 411 min manat təşkil edib. Halbuki bnak 2024-cü ildə 7 milyon 716 min manat xalis mənfəət əldə etmişdi. Bankın faiz gəlirləri 595 min manat və ya 11,8 faiz artaraq 5 milyon 667 min manata yüksəlib. Faiz xərcləri isə qeydə alınmayıb, İran bankının filialının aktivləri 1 milyon 185 min manat və ya 1 faiz artaraq 120 milyon 291 min manata çatıb. 2025-ci ildə bankın cəmi öhdəlikləri 3 milyon 227 min manat təşkil edir.

Elecə də "Bank BTB" və "TuranBank"ın göstəricilərində risklərin qaldığı müşahidə edilir. Hər iki bankın mənfəəti cuzi artsa da, xərclər və risklər yüksəkdir, bu isə onların dayanıqlılığı ilə bağlı bir sıra risklərin qalmasından xəbər verir. Ümumiyyətlə, ölkə üzrə 4-5 bankın maliyyə göstəriciləri bank sektorunda problemlərin hələ də qaldığına işarə edir. Bu isə bank sektorunda likvidliyin itirilməsi təhlükəsi fonunda bəzi bankların bağlanma ehtimalını artırır.

### Likvidliyini itirən bankların bağlanması qaçılmazdır

Qeyd edək ki, bank bazarında öz öhdəliklərini yerinə yetirə bilməyən və likvidliyini tamamilə itirən banklar Mərkəzi Bankın müvafiq qərarı ilə lisensiyadan məhrum olunur, sonra onların öhdəliklərinin yerinə yetirilməsi üçün müvafiq komissiya yaradılır. Komissiya bankların vətəndaşlara və sahibkarlıq subyektlərinəd olan borclarının ödənilməsi, kreditlər üzrə öhdəliklərin yerinə yetirilməsi işlərini tənzimləyir. Kapitallarını tamamilə itirmiş və kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilməyən banklar müflis elan olunduqdan sonra Əmanətlərin Sığortalanması Fondu ləğvedici təyin edilir və həmin bankların öhdəliklərin reyestri ƏSF-yə ötürülür.

ƏSF ilk növbədə, banklardakı əmanətlərin qaytarılmasını təmin edir. Bunun üçün Fond ilk növbədə, bağlanmış bankın öz aktivlərini borca yönəldir, vəsait yetrəli olmadığı halda öz maliyyə portfelindən tələb olunan həcmdə vəsaitləri ayırırır, bu da çatmadıqda Mərkəzi bankdan borc götürərək vətəndaşların depozit öhdəliyini bağlayır. Bu qaydalar isə qorunan əmanətlərə aiddir. "Əmanətlərin sığortalanması haqqında" Qanununun müvafiq maddələrinə əsasən, fiziki şəxslərin banklarda saxladıqları 100 min manatadək olan əmanətləri qorunan əmanətlər hesab olunur. Əgər əmanətin məbləği 100 min manatdan çoxdursa, o zaman onun 100 min manata qədər olan hissəsi sığortalanır. Əgər əmanətlər xarici valyuta ilə saxlanılırsa, onlar üçün qorunma məbləği 100 min manat ekvivalentinə qədərdir. Əmanətlərin qorunması üçün, həmçinin, manatla saxlanılan əmanətlər illik maksimum 12 faizədək gəlir şərti ilə, xarici valyutadakı əmanətlər isə illik maksimum 3 faiz yerləşdirilməlidir. Qorunmayan əmanətlərə görə, məsuliyyəti yalnız bank daşıyır.




Yuxarıda vurğuladığımız hallar isə banklara depozit yerləşdirən vətəndaşların yenidən öz əmanət müqavilələrinə baxmasını da aktuallaşdırır.

*E.CƏFƏRLİ*

# "Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar"

## Bakıda BTQ-nin təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib



Yanvarın 16-da ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" adlı beynəlxalq konfrans keçirilib.

Tədbirdə Pəncab əyalətinin İnsan Hüquqları və Azlıqlar üzrə naziri Rameş Singh Arora və digər rəsmilər, eləcə də siqh icmasının Kanada, Böyük Britaniya və ABŞ-dakı nüfuzlu nümayəndələri, beyin mərkəzlərinin rəhbərləri, xarici universitetlərin insan hüquqları və etnik azlıqlar sahəsində fəaliyyət göstərən alimləri, həmçinin Hindistan hökumətinin repressiv, irqçi və təqib siyasətinin birbaşa qurbanı olmuş şəxslər iştirak edirlər.

Tədbirdə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, beynəlxalq hüquqa və insan hüquqları prinsiplərinə tam uyğun şəkildə fəaliyyət göstərən Bakı Təşəbbüs Qrupu qlobal dekolonizasiya hərəkatının beynəlxalq platformasına çevrilib. O bildirib ki, son iki il ərzində təşkilat dünyanın müxtəlif ölkələrində 30-dan çox yüksəksəviyyəli beynəlxalq konfrans keçirib. Bu konfranslar siyasi liderləri, alimləri, hüquq mütəxəssislərini, müstəqillik hərəkatlarının nümayəndələrini, vətəndaş cəmiyyəti institutlarını və BMT-nin xüsusi məruzəçilərini bir araya gətirib. Eyni zamanda, BTQ indiyədək dörd kitab nəşr etdirib, həmçinin BMT qurumlarına bir neçə alternativ hesabat təqdim edib. Bildirib ki, BTQ bununla yanaşı, Afrika Mənşəli İnsanlar üçün Beynəlxalq Onilliyin icrasına həsr olunmuş əsas çağırışları və bu qrupların hüquqlarının qorunmasının, onların tanınmasının və inkişafının təşviqi üzrə tövsiyələri əks etdirən əhatəli hesabatı BMT-yə təqdim edib. Həmin hesabat BMT Baş katibinin 2025-ci il üzrə Afrika Mənşəli İnsanlar üçün Beynəlxalq Onilliyin həyata keçirilməsinə dair Fəaliyyət Proqramı haqqında məruzəsində xüsusi olaraq qeyd edilib.

O da qeyd olunub ki, BTQ 20-dən çox ölkə və dənizaşırı ərazi ilə əməkdaşlıq əlaqələri qurub, 25-dən artıq təşkilat və beynəlxalq institutla tərəfdaşlıqlar formalaşdırıb.

Konfransda Hindistan hökumətinin siqhlərə və digər etnik azlıqlara qarşı sistemli irqi ayrı-seçkilik, zorakılıq və repressiv siyasəti, xüsusilə BMT-nin "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "İrqçiliklə Mübarizə üzrə Beynəlxalq Konvensiya" və "İşgəncələrə qarşı Konvensiya" üzrə öhdəliklərinin etnik azlıqlara münasibətdə kobud şəkildə pozulması məsələləri müzakirə olunub. Real vəziyyətin beynəlxalq təşkilatların gündəliyində saxlanması və müvafiq qərarların qəbul olunması, xüsusilə BMT-nin İnsan Hüquqları Komitəsi tərəfindən Hindistanda etnik azlıqların pozulmuş hüquqları, məhkəmə qərarları olmadan icra edilmiş edamların araşdırılması, eləcə də BMT-nin xüsusi məruzəçiləri tərəfindən hüquq pozuntularının sənədləşdirilməsi və beynəlxalq monitorinqə çıxarılması imkanları ətrafında müzakirələr aparılıb. Beynəlxalq və yerli qeyri-hökumət təşkilatları və akademik çevrələrin bu prosesdə rolu, onların hazırladığı hesabatların, hüquqi rəylərin və tövsiyələrin beynəlxalq qərar qəbuletmə mexanizmlərinə təsir imkanları müzakirə olunub.

Pəncab Əyalətinin İnsan Hüquqları və Azlıqlar üzrə naziri Rameş Singh Arora bildirib ki, bu günün əsas tələblərindən biri Hindistanda baş verənləri dəqiq və obyektiv şəkildə işıqlandırmaqdır. Söhbət Hindistanda cinsi və digər azlıqlara qarşı yönəlmiş irqçilikdən, zorakılıqdan gedir. O bildirib ki, Hindistandakı siqh icması üçün 1980-ci illərdə baş verənlər olduqca acı və üzücüdür. O eyni zamanda, tədbirin təşkilinə görə Bakı Təşəbbüs Qrupuna təşəkkür edib: "Bu gün burada Kanada, Böyük Britaniya, Avropa və Pakistandan olan siqh diasporunun nümayəndələri iştirak edirlər. Biz Hindistanda insan hüquqları sahəsində baş verənləri, xüsusilə siqh icmasının, eləcə də digər azlıqların - müsəlmanların, dalitlərin və xristianların üzləşdiyi problemləri müzakirə etmək üçün toplaşmışıq. Son dövrlərdə Hindistanda baş verən hadisələrə nəzər saldıqda, Kəşmir və Qucaratda müsəlmanların, eləcə də xristianların ciddi təzyiqlərə məruz qaldığını görürük. Təkcə son Milad bayramı zamanı ölkədə 700-dən çox insident qeydə alınıb".




Siqh Federasiyasının sədri Bual Moninder Singh deyib ki, mövzu siqh icmasına qarşı zorakılıqdır. Bu yalnız Hindistanla əhatələnmir. Hindistan bu zorakılığı indi digər ölkələrə də yaymağa çalışır. Zorakılığın əsas səbəbi siqhlərin Xalistan uğrunda siyasi iradəsini və hərəkatını boğmaqdır. O bildirib ki, konfransda Hindistan dövlətinin tətbiq etdiyi ekstremal zorakılıq diqqətə çatdırılacaq. Bu zorakılıq icmaları təzyiq və əzab altında saxlamaq məqsədi daşıyır.

Qeyd edək ki, qaçan siqh icmasının üzvlərinin böyük əksəriyyəti hazırda Kanada, Böyük Britaniya, ABŞ və Avstraliyada məskunlaşıblar və Hindistanda bu gün də davam edən siyasi repressiyalara qarşı ədalət tələb edirlər. Siqh icması Hindistan hökumətindən 1984-cü il antisiqh qırğınlarının rəsmi olaraq soyqırımı kimi tanınmasını, qanunsuz həbs edilmiş siqh fəalların azadlığa buraxılmasını, Pəncabın muxtariyyətinin genişləndirilməsini və idarəetmədə mərkəzi hökumətin müdaxiləsinin qadağan olunmasını tələb edirlər.

*YEGANƏ*

# Davos-2026: qlobal risklər dövründə dünya nizamının yenidən yazılması

Yanvarın 19-dan 23-nə qədər İsveçrənin Davos şəhəri qlobal qərarların formalaşdığı əsas platformalardan birinə çevriləcək. Dünyanın dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri, biznes dairələri, vətəndaş cəmiyyəti institutları və akademik mühit Dünya İqtisadi Forumunun 56-cı illik toplantısında bir araya gələcək. Forum ərəfəsində açıqlanan "2026-cı il üzrə Qlobal Risklər Hesabatı" isə qarşıdakı dövrün əsas təhlükə tendensiyalarını açıq şəkildə ortaya qoyur.

Hesabat göstərir ki, bu il qlobal miqyasda ən ciddi risk geoiqtisadi qarşıdurmaların artmasıdır. Dövlətlərarası münaqişələr, iqlimlə bağlı ekstremal hadisələr, cəmiyyətlərdə dərinləşən sosial qütbləşmə, eləcə də saxta xəbərlər və dezinformasiya bu riskləri tamamlayan əsas təhdidlər kimi qiymətləndirilir. Sorğuda iştirak edən respondentlərin yarıdan çoxu yaxın iki ilin dünya üçün gərgin və qeyri-müəyyən keçəcəyini düşünür. Bu göstəricinin əvvəlki illə müqayisədə 14 faiz artması qlobal narahatlığın sürətlə yüksəldiyini göstərir.

Bu mənzərə fonunda Davos artıq klassik mənada konsensus platforması deyil. Dünya İqtisadi Forumunun 2026-cı il üzrə hesabatı təsdiqləyir ki, beynəlxalq sistem sabitlik mərhələsini arxada qoyaraq davamlı qeyri-sabitlik rejiminə daxil olub. Əgər əvvəlki onilliklərdə Davos əsasən iqtisadi əməkdaşlıq və liberallaşma ideyalarının müzakirə olunduğu məkan idisə, bu gün o, qlobal qarşıdurmaların səviyyəsini ölçən siyasi və strateji indikator rolunu oynayır. Hesabatın əsas mesajı sadədir: qlobal sistem artıq riskləri aradan qaldırmır, onlarla yaşamağa məcbur qalır.

Risklər arasında geoiqtisadi münaqişənin birinci yerə yüksəlməsi ciddi dönüş nöqtəsidir. Burada söhbət yalnız ticarət müharibələrindən yox, iqtisadi mexanizmlərin birbaşa siyasi və hətta hərbi təzyiq alətinə çevrilməsindən gedir. Sanksiyalar, enerji resursları, logistika marşrutları və maliyyə axınları klassik diplomatiyanın tamamlayıcısı deyil, onun yerini tutan əsas təsir vasitələrinə çevrilib. Təsadüfi deyil ki, respondentlərin 18 faizi məhz geoiqtisadi qarşıdurmanı 2026-cı ildə qlobal böhrana yol aça biləcək əsas risk kimi dəyərləndirir.

Hesabatın ən diqqətçəkən cəhətlərindən biri qlobal gözləntilərin psixoloji mənzərəsidir. Respondentlərin əksəriyyəti yaxın iki ili "qarışıq və təlatümlü" dövr kimi təsvir edir, onillik perspektivdə isə bu qiymətləndirmə daha da ağırlaşır. Bu göstəricilər göstərir ki, sabitlik artıq norma deyil, istisna kimi qəbul olunur. Uzunmüddətli perspektivdə cəmi 1 faiz respondent tərəfindən əmin-amanlığın mümkün sayılması isə beynəlxalq sistemdə strateji nikbinliyin, demək olar, tükəndiyini təsdiqləyir.

**Silahlı münaqişə və iqtisadiyyatın silahlaşdırılması**

Yaxın perspektiv üçün risklərin təhlili göstərir ki, silahlı münaqişə ilə iqtisadi təzyiq mexanizmləri artıq bir-birindən ayrılmazdır. Müasir dövlətlər müharibəni təkcə hərbi vasitələrlə yox, bank sistemləri, texnologiya ixracına nəzarət, enerji marşrutları və sanksiyalar üzərindən aparır. İqtisadi alətlər faktiki olaraq geosiyasi silaha çevrilib.

Bu tendensiya beynəlxalq hüququn əsas prinsiplərini ciddi şəkildə zəiflədir. Dövlət suverenliyi getdikcə nisbi xarakter alır, neytrallıq praktik baxımdan çətinləşir, iqtisadi əməkdaşlıq isə etimad mənbəyi deyil, potensial risk kimi qiymətləndirilir. Davos-2026 Qlobal Risklər Hesabatında respondentlərin 68 faizinin növbəti onillikdə çoxqütblü və ya parçalanmış dünya nizamı gözləməsi bu dəyişimin miqyasını aydın göstərir.

Lakin söhbət klassik mənada çoxqütblülükdən getmir. Bu yeni reallıqda vahid oyun qaydaları yoxdur, beynəlxalq institutların arbitraj rolu zəifləyib, güc balansı isə situativ və dəyişkən xarakter daşıyır. Başqa sözlə, dünya tədricən "qaydalar əsasında qurulan nizamdan" uzaqlaşaraq "güc əsasında idarə olunan mühitə" doğru hərəkət edir.

Hesabat açıq göstərir ki, iqtisadiyyat artıq neytral sahə deyil. Əməkdaşlıq avtomatik təhlükəsizlik yaratmır, risklər isə lokal xarakter daşımır, zəncirvari şəkildə yayılır. Bu şəraitdə dövlətlər üçün əsas sual belə formalaşır: onlar bu risklərin passiv obyektidirmi, yoxsa riskləri idarə edə bilən aktiv aktorlara çevrilə bilirlər?

Bu kontekstdə 2026-cı il Davos Forumu qlobal əməkdaşlığın nümayiş platformasından daha çox qlobal güc rəqabətinin səhnəsinə bənzəyir. Rəsmi olaraq "əməkdaşlıq ruhu" qorunsa da, real müzakirələr qarşılıqlı etimadın möhkəmləndirilməsi yox, strateji üstünlüyün əldə olunması üzərində cəmləşir. Dünya İqtisadi Forumunun Qlobal Risklər Hesabatı bu transformasiyanın nəzəri çərçivəsini təqdim edirsə, Davosun gündəliyi həmin çərçivənin praktik siyasi tətbiqini ortaya qoyur. Proseslərin mərkəzində isə ABŞ, Çin və Avropa arasında formalaşan strateji üçbucaq dayanır.

**ABŞ: tək mərkəz iddiasının geri dönüşü**

ABŞ-ın Davos-2026 strategiyası açıqdır - dekabr ayında açıqlanan ABŞ-ın son Milli Təhlükəsizlik Strategiyası bu cavabı özündə əks etdirir. Donald Trampın president olduqdan sonra səsləndirdiyi "öncə Amerika" şüarı burada da özünü tam göstərir. Beləliklə, "USA House" kimi simvolik platformaların Davosda ön plana çıxarılması təsadüfi deyil. Bu, Birləşmiş Ştatların dünyaya verdiyi mesajdır: ABŞ qlobal nizamın sadəcə iştirakçısı deyil, o, yenidən




mərkəz olmaq niyyətindədir və bu mərkəzlə razılaşmayanlar risk zonasına daxil olur. Qlobal Risklər Hesabatında geoiqtisadi münaqişənin birinci yerdə qərarlaşması məhz ABŞ-ın bu strategiyasının (tariflərlə bağlı qərar) nəticəsidir.

**Çin: konfrontasiyasız müqavimət modeli**

Pekin Davos-2026-da tamamilə fərqli taktika sərgiləyir. Çin açıq qarşıdurmadan yayınaraq strateji səbr və iqtisadi cazibə xəttini davam etdirir. Çin üçün Davos - Avropa ilə münasibətləri qorumaq, qlobal ticarətin mühüm mərkəzi olduğunu göstərmək platformasıdır. Çinin mesajı qısa və rasionaldır: "Qarşıdurma yox, qarşılıqlı asılılıq". Lakin bu ritorikanın arxasında ciddi güc resursları dayanır: qlobal istehsal zəncirlərində dominantlıq, kritik xammal bazarları (litium, nadir torpaq elementləri), limanlar və logistika şəbəkələri üzərində nəzarət. Qlobal Risklər Hesabatında iqtisadi alətlərin silah kimi istifadəsinin artması Çin üçün həm təhlükə, həm də imkan yaradır. Çünki Pekin artıq uzun illərdir Qərb bazarlarından asılılığı azaltmaq strategiyası yürüdür.

**Avropa: strateji qeyri-müəyyənliyin mərkəzi**

Davos-2026-da ən çətin mövqedə olan aktor Avropadır. Bir tərəfdən ABŞ-dan təhlükəsizlik asılılığı, digər tərəfdən Çinlə qarşılıqlı iqtisadi bağlılıq Avropanı strateji dilemma qarşısında qoyur. Almaniyanın yeni federal kansleri üçün Davos ilk böyük qlobal sınaqdır. Berlin Avropanın iqtisadi lokomotivi statusunu qorumağa, eyni zamanda ABŞ-Çin qarşıdurmasında açıq tərəf olmamağa çalışır. Lakin Qlobal Risklər Hesabatının göstərdiyi kimi, iqtisadi tənəzzül və inflyasiya risklərinin Avropada sürətlə yüksəlməsi bu manevr imkanlarını daraldır. Avropa artıq qayda qoyan deyil, qaydalara uyğunlaşmağa çalışan aktora çevrilir. Beləliklə, ABŞ-Çin-Avropa münasibətləri Davos-2026-da yeni mərhələyə daxil olur. Bu mərhələnin əsas xüsusiyyəti kompromis axtarışı yox, güc balansının yenidən ölçülməsidir. Qlobal Risklər Hesabatında respondentlərin əksəriyyətinin "parçalanmış dünya nizamı" gözləməsi təsadüfi deyil. Gözlənən parçalanma məhz bu üçbucağın daxilində dərinləşir. Davos-2026 göstərir ki, qlobal liderlik artıq kollektiv deyil, böyük güclər riskləri azaltmaq yox, rəqiblərin risklərini artırmaq strategiyası yürüdür, iqtisadiyyat siyasətin davamına çevrilib. Bu şəraitdə orta və regional güclər üçün yeni imkan pəncərəsi açılır.

**Azərbaycan Davosda diqqət mərkəzində olacaq**

Qlobal Risklər Hesabatı açıq şəkildə göstərir ki, böyük güclər arasında artan qarşıdurma beynəlxalq sistemi iflic vəziyyətinə yaxınlaşdırır. Bu vəziyyətdə nə kiçik dövlətlərin, nə də supergüclərin tam çevik davranmaq imkanı var. Məhz bu boşluqda "orta güclər" ön plana çıxır. Orta güc artıq əhali və ya iqtisadi ölçü ilə yox, strateji mövqe, diplomatik çeviklik və funksional əhəmiyyətlə müəyyən olunur. Azərbaycan bu parametrlər üzrə Davos-2026 kontekstində fərqlənən aktorlardan biridir. Cənubi Qafqazda faktiki siyasi legitimlik mərkəzi Bakıdır. Bu isə Davos çərçivəsində Qafqaz mövzularının de-fakto Azərbaycan üzərindən keçəcəyini göstərir.

**Enerji diplomatiyasından enerji təklifinə keçid**

Azərbaycanın Davos-2026 gündəliyində əsas fərq əvvəlki illərlə müqayisədə keyfiyyət transformasiyasıdır. Əgər ötən dövrlərdə rəsmi Bakı enerji layihələri üzrə niyyətlərdən danışırdısa, indi artıq konkret məhsul və marşrut təklif edir. Azərbaycan Avropaya təbii qaz tədarükünü artıran, yaşıl enerji layihələrini real dövriyyəyə daxil edən, həm mavi, həm də yaşıl enerjini paralel təqdim edən nadir aktorlardandır. Bu ikili model Avropa üçün kritik əhəmiyyət daşıyır, çünki Qlobal Risklər Hesabatında enerji təhlükəsizliyi dolayısı ilə bir çox risklərlə əlaqəli əsas faktor kimi göstərilir.

**Orta Dəhliz: logistikanın geosiyasi çevrilməsi**

Rusiya və İran ətrafında artan gərginlik Şimal və Cənub marşrutlarını funksional olaraq zəiflədir. Bu şəraitdə Orta Dəhliz yeganə real alternativə çevrilir.

Azərbaycan bu dəhlizdə təkcə tranzit ölkə deyil, təhlükəsizlik və davamlılıq təminatçısıdır. Davos-2026 kontekstində bu amil xüsusi önəm kəsb edir. Çünki Qlobal Risklər Hesabatında logistika və təchizat zəncirlərinin qırılması riskləri birbaşa geoiqtisadi münaqişələrlə əlaqələndirilir. Rəsmi Bakı regionda mühüm əməkdaşlıq mühiti formalaşdırıb - Qərblə enerji və logistika əməkdaşlığı qurur, Rusiya və İranla normal qonşuluq münasibətini qoruyur, Qlobal Cənubla siyasi dialoqu saxlayır. Bu tendensiya Davos-2026 kimi platformada yüksək etimad kapitalı yaradır. Azərbaycan funksional tərəfdaş rolunu oynayır. Davos-2026 göstərir ki, Azərbaycan regional proseslərin obyektindən subyektinə çevrilib, risklərin artdığı dünyada stabilizasiyaya nail olan aktor kimi çıxış edir, "orta güc" anlayışını praktiki məzmunla doldurur. Bu status isə yalnız regional deyil, qlobal miqyasda da taktiki üstünlük yaradır.

**Yeni mənzərə...**

Davos-2026 nə yeni dünya nizamı qurur, nə də mövcud böhranları həll edir. Bu forumun əsas funksiyası fərqlidir: o, qlobal sistemin real vəziyyətini bütün çılpaqlığı ilə əks etdirən güzgüdür. "Global Risks Report 2026" göstərir ki, beynəlxalq nizam artıq qaydalar üzərində deyil, risklərin idarə edilməsi üzərində qurulub. Bu, liberal beynəlxalq sistemin əsas postulatının - qarşılıqlı asılılığın sülh yaradacağı tezisinin faktiki iflası deməkdir. "Sferalar" dövrü bitir, "oyun qaydaları" dağılır. XX əsrin geosiyasəti "təsir sferaları" üzərində qurulmuşdu. XXI əsrin reallığı isə daha xaotikdir: sərt sərhədlər yoxdur, sabit alyanslar zəifləyir, qaydalar selektiv şəkildə tətbiq olunur. Davos-2026 ərəfəsində ortaya çıxan mənzərə "çoxqütblü harmoniya" deyil.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Türk dövlətlərinin diasporu əlaqələri gücləndirir

Hazırda dünyada  mürəkkəb qlobal proseslərin davam etməsi türk dünyasının birliyinin daha da güclənməsini zəruri edir. Əsrlər boyu dünya tarixində bəşəri dəyərləri ilə özünəməxsus yer tutmuş türk xalqları məhz bu gün mürəkkəb beynəlxalq münasibətlər və qloballaşma şəraitində öz mövcudluğunu qoruyub saxlamaqda, həmçinin bəşəriyyətin inkişafına, inteqrasiya və əməkdaşlığa xüsusi töhfələr verməkdədirlər. Tarixin bütün dövrlərində ən müxtəlif sosio-mədəni, etno-mədəni və etno-siyasi proseslər və hadisələrin əsas məkanı qismində çıxış edən Avrasiyada türk xalqları müsbət regional və beynəlxalq dəyişikliklərə səbəb olan proseslərin baş verməsində özünəməxsus rol oynayıblar.

## TDT cəmiyyətlərin inteqrasiyasında vacib rol oynayır

Dünyanın mövcud geosiyasi şərtləri fonunda türk dövlətləri arasında əməkdaşlıq münasibətləri bu gün daha vacib xarakter daşıyır. Xüsusilə, Avrasiyada mühüm geostrateji proseslərin baş verdiyi zamanda türk dövlətləri arasında çoxşaxəli, səmərəli və uğurlu əlaqələrin mövcud olması regional təhlükəsizlik, beynəlxalq inteqrasiya kontekstində çox mühüm əhəmiyyətə malikdir. XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı (TDT) da öz gücünü artırmaqdadır.  Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi, geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir. Türk dünyası ortaq tarix, dil və mədəniyyətə malik 7 müstəqil dövlət, bir neçə muxtar ərazidən ibarət böyük coğrafi məkandır. 2009-cu ildə Naxçıvanda təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bu əməkdaşlığın daha da inkişaf etməsi və birliyin möhkəmlənməsi üçün mühüm platforma rolunu oynayır. 2021-ci ildə təşkilatın statusu və nüfuzu daha da yüksəldilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı və bu addım türk dünyasının beynəlxalq arenada söz sahibi kimi çıxış etməsinə imkan yaradır.

Azərbaycan TDT-nin təsisçi üzvlərindən biri olaraq bu təşkilatın fəaliyyətində mühüm rol oynayır. Ölkəmiz təşkilat yaranan gündən ona xüsusi önəm verib və bu istiqaməti xarici siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Azərbaycan TDT-ni üzv və müşahidəçi dövlətlərlə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün vacib platforma hesab edir. Azərbaycan dövləti TDT çərçivəsində qurumun nüfuzunu artırmaq və funksionallığını gücləndirmək üçün mütəmadi olaraq yeni təşəbbüslərlə çıxış edir. Bu baxımdan, TDT üzvlərinin müxtəlif strukturlarının təşkilatlanmış formatı əhəmiyyət kəsb edir. Belə ki, türk dövlərinin dövlət qurumlarının vahid formada toplantılar keçirməsi ənənə halını alıb. Eləcə də QHT və media platformalarının yaradılması da türk cəmiyyətləri arasında inteqrasiyanın güclənməsində önəmli rol oynayır.






## Vyanada diaspor qurumlarının nümayəndələri görüşüb

Bu istiqamətdə ən vacib məsələlərdən biri isə türk dövlətlərinin diasporları arasında əlaqələrin gücləndirilməsidir. Məlumdur ki, Azərbaycan və Türkiyə diasporu bir çox hallarda koordinasiyalı fəaliyyət göstərir, xaricdə birgə tədbirlər keçirirlər. Prosesə digər türk dövlətlərinin diasporunun qoşulması beynəlxalq müstəvidə ölkələrimizin və xalqlarımızın maraqlarının qorunması üçün olduqca faydalı olardı.  Bu baxımdan, Avstriyanın paytaxtı Vyanada Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Türk Dövlətləri Təşkilatının (TDT) dəstəyi, ölkəmizin Avstriyadakı səfirliyinin və Azərbaycan Mədəniyyət Mərkəzinin tərəfdaşlığı ilə TDT-yə üzv ölkələrin diaspor məsələlərinə məsul dövlət qurumlarının nümayəndələrinin görüşünün keçirilməsi xüsusi vurğulanmalıdır.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev görüşdə çıxış edərək Türk Dövlətləri Təşkilatına üzv ölkələrin diaspor qurumları arasında əlaqələrin dərinləşdirilməsinin və fəaliyyətin daha koordinasiyalı şəkildə qurulmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Tədbir çərçivəsində keçirilən Diaspor Potensialının Artırılması üzrə təlim proqramlarının bilik və təcrübə mübadiləsi baxımından mühüm platforma olduğunu qeyd edib.

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli belə təşəbbüslərin türk diasporunun beynəlxalq müstəvidə daha güclü və vahid mövqe ortaya qoymasına xidmət etdiyini bildirib.

Diasporla İş üzrə Dövlət Komitəsinin məsul əməkdaşları Leyla Həmzəyeva və Şəfəq Binnətova komitənin həyata keçirdiyi genişmiqyaslı layihələr, qarşıya qoyulan hədəflərlə bağlı geniş məlumat veriblər. Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrlə əməkdaşlıq çərçivəsində görülən işlərdən danışıblar.

Digər çıxışçılar da xaricdə yaşayan türk icmalarının təşkilatlanması, gənclərin diaspor proseslərinə cəlb olunması məsələlərinə toxunub, TDT-yə üzv ölkələrin diaspor qurumları arasında institusional əməkdaşlığın gücləndirilməsinin labüdlüyünü dilə gətiriblər. Görüş qarşılıqlı fikir mübadiləsinin aparılması, diaspor sahəsində qazanılan təcrübələrin paylaşılması və gələcək əməkdaşlıq imkanlarının müzakirəsi ilə davam edib.

Nəzərə alaq ki, türk birliyinin geosiyasi əhəmiyyəti, həm də ondan ibarətdir ki, bu əməkdaşlıq böyük güclər arasında rəqabətin artdığı bir şəraitdə region ölkələri üçün "strateji kollektiv cavab" rolunu oynayır . Məsələn, 2022-ci ildən sonra Avropa ilə Çin arasındakı ticarət marşrutlarının Rusiya üzərindən keçməsi riskli hala gəldikdə, Orta Dəhliz kimi tanınan Trans-Xəzər nəqliyyat yolunun strateji dəyəri yüksəldi. Hazırda Orta Dəhlizin əsas iştirakçıları məhz Türk Dövlətləri Təşkilatının üzvləridir. Azərbaycan üçün isə türk birliyi Cənubi Qafqazda regional güc balansını öz xeyrinə dəyişdirmək, mövqelərini həm siyasi, həm iqtisadi baxımdan möhkəmləndirmək üçün əlverişli geosiyasi platformadır. Bütün bunların fonunda TDT üzvlərinin diasporunun sıx  əməkdaşlığı regionun önəminin beynəlxalq miqyasda təbliği nöqteyi-nəzərəindən də çox önəmlidir.

***Nardar BAYRAMLI***

# Aİ müstəqil müdafiə mexanizmi yaradır

Avropa İttifaqı son illər təhlükəsizlik və müdafiə məsələlərini prioritet istiqamətə çevirərək öz müdafiə qabiliyyətini gücləndirmək üçün ciddi və sistemli addımlar atır. Qlobal geosiyasi gərginliklərin artması, regional münaqişələrin genişlənməsi, hibrid təhdidlər, kiber hücumlar və enerji təhlükəsizliyi ilə bağlı risklər Aİ-ni daha çevik, müstəqil və dayanıqlı müdafiə mexanizmləri formalaşdırmağa vadar edir. Ənənəvi olaraq təhlükəsizlik sahəsində NATO-ya arxalanan Avropa artıq özünün strateji muxtariyyətini artırmağın vacibliyini açıq şəkildə qəbul edir.

Bu kontekstdə Avropa İttifaqı müdafiə sənayesinin inkişafı, birgə silah və hərbi texnika istehsalı, üzv ölkələr arasında koordinasiyanın gücləndirilməsi və müdafiə xərclərinin artırılması istiqamətində yeni mərhələyə qədəm qoyub. Xüsusilə SAFE kimi iri maliyyə mexanizmlərinin işə salınması Aİ-nin müdafiə sahəsində söz sahibi olmaq niyyətini aydın şəkildə ortaya qoyur. Verilən açıqlamalardan bəlli olur ki, məqsəd yalnız mövcud təhlükələrə cavab vermək deyil, həm də gələcək risklərə qarşı qabaqlayıcı tədbirlər görmək, Avropanın təhlükəsizliyini kənar təsirlərdən asılı olmayan şəkildə təmin etməkdir.

## Birinci mərhələdə 8 ölkəyə pul ayrılır



### İlkin tranş təsdiqlənib...

Yeri gəlmişkən, Avropa Komissiyası (AK) SAFE müdafiə proqramı çərçivəsində Belçika, Bolqarıstan, Danimarka, İspaniya, Xorvatiya, Kipr, Portuqaliya və Rumıniyaya maliyyə yardımının təsdiqlənməsi üçün Aİ Şurasına təklif təqdim edib.

Bu barədə məlumat verən komissiyanın rəhbəri Ursula Fon der Leyen bildirib ki, keçən il Aİ müdafiə sahəsində əvvəlki onilliklərə nisbətən daha çox irəliləyiş əldə etdi”. O, Avropa Komissiyasının ötən ilki təşəbbüsünü xatırladıb. Bu təşəbbüs Aİ müdafiə məqsədləri üçün 800 milyard avro ayırmağı və Aİ üzv dövlətlərinə SAFE proqramı çərçivəsində birgə tədarük üçün 150 milyard avro kredit verməyi hədəfləyirdi: “Biz artıq Belçika, Bolqarıstan, Danimarka, İspaniya, Xorvatiya, Kipr, Portuqaliya və Rumıniya üçün SAFE planlarının ilk partiyasını təsdiqləmişik. Qalan planlar qısa müddət sonra təsdiqlənəcək. Şuranın indi vəsaitlərin sürətli şəkildə ödənilməsini təmin etmək üçün bu planları təcili olaraq təsdiqləməsi lazımdır”.

Avropa Komissiyasının məlumatına görə, bu təsdiq, səkkiz Aİ ölkəsinə hərbi hazırlıqlarını tez bir zamanda yaxşılaşdırmağa və lazımi müasir müdafiə avadanlıqlar əldə etməyə imkan verəcək ucuz, uzunmüddətli kreditlərin ilk dalğası üçün yol açır.

İndi kredit müqavilələri imzalandıqdan sonra səkkiz Aİ üzv dövlətindən ibarət qrup təxminən 38 milyard avro almaq hüququna malik olacaq.

Avropa Komissiyası dərc olunmuş kommünikedə qeyd olunub: “Bu, həmçinin Ukraynanı Aİ təhlükəsizlik ekosisteminə inteqrasiya edəcək və dəstəyimizin həm sürətli, həm də davamlı olmasını təmin edəcək”.

Aİ Şurasının bu təklifi təsdiqləməsindən sonra Avropa Komissiyası kredit müqavilələrini yekunlaşdıracaq və Brüssel ilk ödənişlərin 2026-cı ilin mart ayında başlayacağını gözləyir.

### SAFE: yeni maliyyə mexanizmi...

Qeyd edək ki, SAFE (tam adıyla Security Action for Europe) Avropa İttifaqının müdafiə sahəsində yeni maliyyə və investisiya proqramıdır. Proqram 2025-ci ilin mayında Avropa İttifaqı Şurası tərəfindən rəsmən qəbul edilib. Aİ ölkələrinin müdafiə qabiliyyətini sürətlə gücləndirmək, Avropanın ümumi müdafiə sənaye bazasını inkişaf etdirmək və strateji müdafiə layihələrini birgə həyata keçirməyə hədəflənən proqramın əsas məqsədləri isə Aİ üzv dövlətlərinə müdafiə məhsullarının və avadanlıqlarının əldə edilməsi üçün maliyyə dəstəyi vermək, birgə satınalmaların təşviqi (bir neçə ölkənin eyni layihədə birgə işləməsi nəticəsində müdafiə xərclərini daha effektiv və koordinasiyalı etmək), Avropanın müdafiə sənaye bazasını gücləndirmək və kritik qabiliyyət boşluqlarını aradan qaldırmaqdır. Proqram üçün ayrılmış ümumi məbləğ təxminən 150 milyard avro təşkil edir. Bu vəsait ölkələrə uzun müddətli və aşağı faizli kreditlər şəklində verilir ki, onlar müdafiə avadanlığını daha sürətlə və sərfəli şəkildə əldə etsinlər. Kreditlər milli investisiya planları əsasında paylanır ki, artıq adıçəkilən ölkələr bu krediti almağa başlayacaqlar. SAFE çərçivəsində hava və raketdən müdafiə sistemləri, artilleriya və sursat istehsalı, dronlar və əleyhdron sistemləri, liderlik və kiber müdafiə texnologiyaları istiqamətində maliyyə dəstəyi verilə bilər. Bu proqram Avropanın təhlükəsizlik və müdafiə siyasətində yeni bir addımdır və Aİ-nin daha müstəqil və koordinasiyalı müdafiə qabiliyyətinə yönəlib. Proqram həm də Avropa ölkələrinin müdafiə sənayesini daha rəqabətli və dayanıqlı etmək üçün strateji maliyyə vasitəsi kimi qiymətləndirilir.




### Yeni müdafiə sistemi

Qeyd edək ki, Aİ artıq uzun müddətdir ki, NATO-dan kənar təhlükəsizlik arxitekturası formalaşdırmaq niyyətindədir. Belə ki, Aİ üzvü olan dövlətlər yaranan NATO müəmması ilə bağlı öz müstəqil müdafiə qabiliyyətlərini gücləndirmək məqsədilə bir sıra təşəbbüslər irəli sürür. Bu, isə bəzi siyasi şərhçilər tərəfindən “Avropanın müstəqil müdafiə sistemi” yaratmaq istiqamətində atılan addımlar kimi dəyərləndirilir. Daha çox ortaq müdafiə planlaması, silahların birgə alınması (PESCO, Avropa Müdafiə Fondu), öz müdafiə sənayesinin gücləndirilməsi (məsələn, Ukraynaya dəstək üçün Avropa Sülh Aləti), və NATO ilə əməkdaşlığı gücləndirmək kimi tədbirlər Avropanın özünü daha effektiv qoruya bilməsini təmin etməyə yönəlmiş addımlar sayılır. Bu addımlar Avropanın öz təhlükəsizlik məsələlərində daha az ABŞ-dan asılı olması, öz qərarını özünün verməsinə hədəflənir. Təsadüfi deyil ki, Aİ qarşıdakı 10 il ərzində hərbi ehtiyaclara 6,8 trilyon avro xərcləmək niyyətindədir. Yeri gəlmişkən, Avropa İttifaqının müdafiə komissarı Andrius Kubilius da bildirib ki, Avropa İttifaqı qitədə dislokasiya olunmuş ABŞ qoşunlarını əvəzləyəcək ümumi orduya malik olmalıdır. Litvanın keçmiş Baş naziri hesab edir ki, qitəni daha yaxşı qorumaq üçün azı 100 min nəfərlik daimi Avropa silahlı qüvvələrinə ehtiyac var. Kubilius həmçinin, qitənin böyük ölkələrinin iştirakı ilə müdafiə şurasının da yaradılmasını təklif edib.

Qeyd edək ki, əvvəllər də bildirilirdi ki, əgər Avropa İttifaqı ölkələri NATO-nun tələbi ilə 2035-ci ilədək müdafiə xərclərini ümumdaxili məhsullarının 3,5 faizinədək artırsalar (NATO-nun hərbi xərclərin ümumdaxili məhsulun 5 faizinə çatdırmaq tələbi hərbi ehtiyaclar üçün 3,5 faizi, ikili təyinatlı infrastruktur layihələri üçün isə 1,5 faizi ehtiva edir), növbəti 10 il ərzində hərbi sahəyə 6,8 trilyon avro xərcləmiş olacaqlar. Müqayisə üçün deyək ki, Avropa İttifaqının növbəti yeddiillik büdcə planında (2026-2034) hərbi xərclər 60 milyard avro həcmində müəyyən edilib.

*P.İSMAYILOV*

# Qəzza üzrə sülh planının ikinci mərhələsi başlayıb

*N.BAYRAMLI*

ABŞ Prezidenti Donald Trampın Qəzza ilə bağlı sülh planı Yaxın Şərqdə vəziyyəti sabitləşdirməyə yönəlib. Ötən il oktyabrın 9-da İsrail və HƏMAS hərəkatı Yaxın Şərqdə vəziyyətin nizamlanması üçün sülh planı çərçivəsində ilk razılaşmaları imzalayıb. Bu münasibətlə Misirin Şarm əl-Şeyx şəhərində Sülh Sammiti keçirilib. Atəşkəsin birinci mərhələsi hərbi əməliyyatların dayandırılmasına və HƏMAS tərəfindən saxlanılan girovların İsrail tərəfindən saxlanılan yüzlərlə fələstinli ilə dəyişdirilməsinə imkan yaratdı. Razılaşma əsasən qüvvədə qalıb, baxmayaraq ki, qarşılıqlı ittihamlarla bəzən pozulub. Artıq sülh planının birinci mərhələsi geridə qalıb. Bu mərhələdə HƏMAS israilli girovları (1 nəfər istisna olmaqla) qarşı tərəfə təhvil verib, İsrail isə çoxlu sayda fələstinli məhkumu azad edib, ordusunu bəzi ərazilərdən geri çəkib.



**Tramp razılaşmalara əməl ediləcəyinə əmindir**

Dünən isə ABŞ Prezidenti Donald Tramp Qəzza sülh planının ikinci mərhələsinə rəsmi keçidi təsdiqləyib və Fələstinin HƏMAS hərəkatının tam tərksilah edilməsi ilə bağlı razılaşmanın əldə olunacağına əminliyini ifadə edib. Bu barədə Tramp “Truth Social” sosial şəbəkəsində paylaşım edib. O yazıb: “Biz 20 maddəlik Qəzza sülh planının növbəti mərhələsini rəsmi olaraq başladıq”. ABŞ Prezidenti yeni yaradılmış Fələstin texnokratik hökumətini dəstəklədiyini vurğulayıb. O bildirib ki, Sülh Şurasının sədri qismində Şuranın Ali Nümayəndəsinin dəstəyinə malik olan və keçid dövründə Qəzza zolağını idarə edəcək Qəzza Milli İdarəetmə Komitəsini dəstəkləyir. Trampın sözlərinə görə, bu Fələstin liderləri dinc gələcəyə sadiqdirlər.

Amerika lideri, həmçinin Misir, Türkiyə və Qətərin dəstəyi ilə HƏMAS-la bütün silahların təslim edilməsi və tunellərin sökülməsi də daxil olmaqla hərtərəfli tərksilah razılaşmasına nail olunacağına əminliyini ifadə edib. Donald Tramp qeyd edib ki, HƏMAS dərhal öz öhdəliklərini yerinə yetirməli, sonuncu israilli girovun cəsədini qaytarmalı və gecikmədən tam tərksilah prosesinə başlamalıdır.

**Qəzza Sülh Şurası yaradılıb**

Ağ Evin rəhbəri Qəzza ilə bağlı Sülh Şurasının artıq yaradıldığını bəyan edib. O deyib ki, şura üzvləri tezliklə elan ediləcək. “Əminliklə deyə bilərəm ki, bu, istənilən vaxtda istənilən yerdə toplanmış ən böyük və ən nüfuzlu şuradır”. Xatırladaq ki, Qəzza Sülh Şurasının yaradılması Donald Trampın 20 maddəlik sülh planında öz əksini tapır. Şura yeni texnokratik Fələstin hökumətinin yaradılmasına, HƏMAS-ın tərksilah edilməsinə, beynəlxalq təhlükəsizlik qüvvələrinin yerləşdirilməsinə, əlavə İsrail qoşunlarının çıxarılmasına və Qəzzanın yenidən qurulmasına nəzarət etməlidir.

“Bloomberg” agentliyinin məlumatına görə, şura dövlət və hökumət başçılarından ibarət olacaq və ona şəxsən Tramp rəhbərlik edəcək. Trampın sədrliyi ilə təxminən 15 dünya liderinin şuraya daxil olacağı bildirilir. Şuraya qoşulan ölkələr arasında Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Səudiyyə Ərəbistanı, Qətər, Misir və Türkiyə də var. İsrailin Baş naziri Benyamin Netanyahu planı dəstəkləyib, lakin HƏMAS-ın silahsızlaşdırılması və Qəzzanın tam demilitarizasiyası üzərində israr edir.

**HƏMAS Qəzzanın idarəçiliyindən imtina edib**

Yeri gəlmişkən, HƏMAS hərəkatı Qəzza zolağında idarəetməni yeni yaradılmış texnokratik administrasiyaya təhvil verməyə razılaşıb. Bu barədə “Əl-Ərəbiyyə” telekanalı Fələstin Milli Muxtariyyəti (FMM) rəhbərinin müşaviri Mahmud əl-Habaşa istinadla məlumat yayıb. Onun sözlərinə görə, 15 üzvdən ibarət administrasiya Qəzzanın idarə olunmasını üzərinə götürəcək və ABŞ Prezidenti Donald Trampın ötən il razılaşdırdığı plan çərçivəsində fəaliyyət göstərəcək. Administrasiya Fələstin Milli Hakimiyyəti ilə əlaqəli işləyəcək, lakin qərarlarında müstəqil olacaq. Bildirilib ki, administrasiyanın əsas vəzifəsi humanitar məsələlərin həlli, əhaliyə zəruri xidmətlərin göstərilməsi və Fələstin əhalisinin köçürülməsinin qarşısının alınmasıdır. Siyasi məsələlər administrasiyanın səlahiyyətlərinə daxil olmayacaq.

Yaxın Şərqdə problemlərin həllində Türkiyə də yaxından iştirak edir. Xarici işlər naziri Hakan Fidan bildirib ki, Türkiyə Qəzzada atəşkəsin davamlı sülhə çevrilməsi üçün səylərini davam etdirəcək. Onun sözlərinə görə, Qəzzada baş verən hadisələr 2025-ci ilin ən ağır gündəmini təşkil edib: “Bu gün qlobal idarəetmə sistemi Qəzzadakı vəziyyətə görə sinifdə qalıb. Biz qarşıdakı dövrdə atəşkəsin davamlı sülhə çevrilməsi üçün səy göstərməyə davam edəcəyik”.

Misir Xarici İşlər Nazirliyi isə bəyan edib ki, Fələstin Qəzza İdarəetmə Komitəsi tam şəkildə formalaşdırılıb: “Misir, Qətər və Türkiyə Qəzzada idarəetmə məsələləri ilə məşğul olacaq Fələstin İdarəetmə Komitəsinin yaradılmasını alqışlayır. İnzibati orqana Əli Əbdül Həmid Şaat rəhbərlik edəcək”. Vasitəçilər komitənin yaradılmasının Fələstin anklavında yeni eskalasiya mərhələsinin qarşısını alacağına ümid edirlər.

Qeyd edək ki, komitəyə rəhbərlik edən Əli Əbdül Həmid Şaat Qəzzanın cənubunda yerləşən Xan Yunisdəndir, lakin hazırda Qərb Sahilində yaşayır. O, Fələstin Milli Administrasiyasında bir sıra yüksək vəzifələr tutub, siyasi və iqtisadi infrastrukturun yenidən qurulması üzrə mütəxəssis hesab olunur.



# Vaşinqton Yaxın Şərqdə hərbi mövcudluğunu artırır

ABŞ İranla gərginliyin artması fonunda Yaxın Şərqə ən azı bir aviadaşıyıcı zərbə qrupunun yerləşdirilməsinə başlayıb.

Bu barədə “Fox News” telekanalı hərbi mənbələrə istinadla məlumat yayıb.

Məlumata görə, ABŞ-ın hava, quru və dəniz qüvvələrinə aid hərbi aktivləri yaxın günlərdə bölgəyə çatacaq. Bu addım Prezident Donald Trampa İrana qarşı mümkün hərbi əməliyyatlar üçün alternativ variantlar təqdim etmək məqsədi daşıyır.

Mənbələr bildiriblər ki, ABŞ hərbi mövcudluğunun genişləndirilməsi çərçivəsində bölgəyə raketdən müdafiə sistemlərinin də yerləşdirilməsi planlaşdırılır.

# Paris yenə büdcəsiz qaldı...




## Tibb ictimaiyyəti etiraza qalxıb

Fransa hökuməti 2026-cı il büdcəsi ilə bağlı Milli Assambleyada aparılan müzakirələri yanvarın 20-dək təxirə salıb. Hakimiyyət hesab edir ki, indiki siyasi şəraitdə büdcə layihəsinin səsverməyə yolu ilə qəbul edilməsi mümkün deyil. Hökumət bazar ertəsi üçün planlaşdırılan debatları ləğv etdiyini açıqlayıb. Baş nazirə yaxın mənbələr bildirir ki, məqsəd bu müddətdə etimadsızlıq səsverməsinin qarşısını ala biləcək siyasi şərtləri formalaşdırmaqdır. Əks halda, hökumət ya büdcəni səsvermədən kənar qəbul etdirmək üçün 49.3-cü maddəni işə salacaq, ya da büdcə sərəncamı yoluna əl atacaq.

Müxalifət isə bu mövqeyi sərt tənqid edib. Maliyyə komissiyasının müxalif LFI-dən olan sədri Erik Kokerel bildirib ki, hökumət məsuliyyəti Milli Assambleyanın üzərinə atmaqla vəziyyətdən çıxmağa çalışır.

Hökumət başçısına yaxın mənbələr iddia edir ki, hansı mexanizmin seçilməsindən asılı olmayaraq, büdcə fevralın ortasından tez qəbul olunmayacaq. Halbuki Prezident Emmanuel Makron yanvarın sonuna qədər büdcənin qəbul ediləcəyinə ümid edirdi və ordulara ünvanladığı yeni il müraciətində Fransanın yenidən silahlanmasını sürətləndirmək üçün maliyyə qanununun qəbulunun vacibliyini vurğulamışdı.

Bu arada Fransada həkimlərin tətili fonunda hökumətin xəstəlik məzuniyyətlərinin daha sərt şəkildə tənzimlənməsi planından geri çəkilməsi tibb ictimaiyyətində ehtiyatla qarşılanır. On gündür davam edən səfərbərlikdən sonra səhiyyə naziri Stefani Rist "France Inter" radiosunda çıxış edərək, liberal həkimlərin tələbləri ilə bağlı müəyyən güzəştlərin ediləcəyini bildirib. Azad Tibb Uğrunda Fransa İttifaqının prezidenti Jerom Marti isə "franceinfo"ya açıqlamasında hökumətin mövqeyini təmkinlə dəyərləndirib: "Bu gün hər şey çox kövrəkdir. Bir sıra maddələr üzrə deyilən sözlər düzgün istiqamətə gedir, amma sözlə əməl arasında hələ böyük fərq var. Yanvarın 5-dən başlayan liberal həkimlərin tətilinə cavab olaraq nazirliyin verdiyi vədlər hələ real təminat demək deyil".

Səhiyyə naziri Stefani Rist liberal həkimlərin həmkarlar ittifaqları ilə görüşərək, onların əsas tələblərinə aid olan tədbirləri müzakirə edib.

Qeyd edək ki, hökumət səhiyyə qurumlarına və Xəstəlik Sığortasına müəyyən tibbi xidmətlərin tariflərini birbaşa müəyyən etmək səlahiyyəti verən mexanizmdən də geri çəkilir. Jerom Marti isə



hazırkı hökumətin siyasi baxımdan zəif mövqedə olduğunu xatırladaraq xəbərdarlıq edib ki, əgər bu qanunlar qəbul olunsa, güclü etiraz dalğası yenidən başlaya bilər.

O vurğulayıb ki, həkimlər bəyanatlarla kifayətlənmək istəmirlər. "Biz konkret öhdəliklər tələb edirik. Bu gün bir məktub və mətbuat açıqlaması alacağıq, bundan sonra hərəkatın davamı ilə bağlı mövqeyimizi açıqlayacağıq", - deyə o vurğulayıb.

# Dərman, yoxsa təbii üsul?

## Qrip necə müalicə olunmalıdır?

*Yeganə BAYRAMOVA*

Soyuq hava, qapalı məkanlarda daha çox vaxt keçirmək qış aylarında havadamcı yolu ilə yayılan infeksiyaların daha çox artmasına səbəb olur. Xüsusilə də soyuqdəymə və qripdən qorunmaq üçün fəslə uyğun geyinmək, balanslı və sağlam qidalanmaq, xəstə insanlarla təmasdan çəkinmək vacibdir. Soyuqdəymə əsasən viral infeksiyalar nəticəsində yaranır və ən çox rast gəlinən səbəb soyuq havada insanın immun sisteminin zəifləməsidir. İnsanlar arasında çox asanlıqla yayılır, xüsusilə qapalı məkanlarda və sıx ərazilərdə yaşayanlarda bu risk daha da artır.

Soyuqdəymə əlamətləri bədənin müdafiə mexanizması tərəfindən reaksiyaya girməsi nəticəsində ortaya çıxır və bədən infeksiyaya qarşı mübarizə aparır. Soyuqdəymənin müalicəsi əsasən simptomatikdir. Hər halda simptomlar ciddiləşmədən əvvəl müalicəyə başlanması çox vacibdir.

**Soyuqdəymənin səbəbləri və riski artıran faktorlar**

Soyuqdəymə ən çox viruslar və bakteriyalar tərəfindən yaransa da, bəzən digər xarici faktorlar da bu xəstəliyin yaranmasına səbəb ola bilər. Soyuqdəymənin səbəbləri müxtəlif ola bilər, amma ən əsas səbəb müxtəlif virusların, xüsusilə "rhinovirus"un bədənin müdafiə sistemini zəiflətməsidir. İnsan orqanizmi bu viruslarla mübarizə aparmaq üçün immun sistemini işə salır və nəticədə boğaz ağrısı, burun axıntısı və öskürək kimi əlamətlər ortaya çıxır. Bu vəziyyət isə soyuqdəymənin əsas simptomlarıdır.

Soyuqdəymə bəzi hallarda müəyyən risk faktorlarının təsiri ilə daha tez yayıla bilər. İnsanlar arasında yaxın təmasın olması xəstəliyi daha tez yayır. Məsələn, məktəblər, ofislər və digər sıx işləyən mühitlərdə qripin yayıla biləcəyi daha çoxdur. Bundan əlavə, immuniteti zəif olan yaşlılar, uşaqlar və xroniki xəstəliklərdən əziyyət çəkən insanlar soyuqdəyməyə daha həssasdır. Bədənləri viruslara qarşı mübarizəni daha çətin həyata keçirir və infeksiya sürətlə yayılır.

**Soyuqdəymə müalicəsi üçün ən yaxşı üsullar**

Soyuqdəymənin müalicəsi üçün bir neçə əsas yanaşma mövcuddur. Ən təsirli metodlar bədənin özünü sağaltma gücünü artırmağa yönəlib. Birincisi, bol su içmək və yeməyi düzgün qidalanmadır. Su bədənin toksinləri atmasına və istilik balansını qorumasına kömək edir. Bu, xüsusilə halsızlıq və boğaz ağrısı kimi simptomların azaldılmasında faydalıdır. Eyni zamanda, isti içkilər və bitki çayları (məsələn, zəncəfil və limon çayı) boğazı yumşaldaraq rahatlamağa kömək edir.



Digər vacib bir metod isə istirahət etməkdir. Soyuqdəymə və qrip zamanı bədən yorulur və gücünü yavaş-yavaş bərpa edir. Beləliklə, çox işləməmək və eslində, bol-bol yuxu və istirahət etmək bədənin virusa qarşı mübarizə gücünü artırır. Ayrıca, boğaz spreyleri və qarqara mayeləri kimi sadə üsullar boğazın rahatlamasına və infeksiyanın azaldılmasına kömək edə bilər.

**Ev şəraitində qripin müalicəsi**

Ev şəraitində qripi müalicə etmək üçün bəzi sadə və təsirli üsullar mövcuddur. İlk növbədə, istilik və rütubət balansına diqqət yetirmək lazımdır. Evin havasını nəmləndirmək nəfəs almağı asanlaşdırır və burun tıxanıqlığını aradan qaldırır. İsti duzlu su ilə qarqara etmək boğazın yumuşalmasına və əzələlərin rahatlamasına kömək edir.

Ev şəraitində edilə bilən digər bir müalicə üsulu isə ağır qidalar və qızardılmış yeməklərdən uzaq durmaqdır. Bunun əvəzinə, yüngül, asan həzm olunan qidalar qəbul etmək bədənin enerji sərfini azaldaraq daha sürətli sağalmasına imkan verir. Həmçinin, bal və limon qarışığı da boğaz ağrısını azaldır və immun sistemini dəstəkləyir.

Bunların yanında, ılıq kompreslər tətbiq etmək də boğaz və burun ətrafında rahatlama yaradır. Əgər bədəndə halsızlıq və üzgünlük hiss olunursa, soyuq duş yerinə, isti duş alaraq bədənə rahatlıq gətirmək faydalıdır.

**Qrip dərmanları...**

Soyuqdəymə və qrip bir-birinə bənzər xəstəliklərdir, amma qrip daha ağır və infeksion ehtimalı yüksək bir vəziyyətdir. Qripin müalicəsi üçün istifadə olunan dərmanlar arasında antiviral dərmanlar ən təsirli vasitələrdən biridir. Həkimlər adətən qripin erkən mərhələlərində bu dərmanları təyin edirlər. Lakin, soyuqdəymə üçün çox vaxt təbii müalicələr daha təsirlidir. Antihistaminlər və analjeziklər (ağrı kəsicilər) soyuqdəymə simptomlarını aradan qaldırmağa kömək edir. Boğaz ağrısı üçün pastillər və soyuqdəymə və qripə qarşı burun spreyləri də əhəmiyyətlidir.

Bununla yanaşı, antibiotiklər soyuqdəymə və qripin müalicəsində istifadə edilmir, çünki bu iki xəstəlik viruslarla bağlıdır və antibiotiklər yalnız bakterial infeksiyaların müalicəsində təsirlidir. Soyuqdəymə zamanı həkimlərin verdiyi digər bir məsləhət isə immun sistemini gücləndirən əlavələr (vitamin C, sink və probiotiklər) qəbul etməkdir.

**Qripin hansı mərhələsində həkimə getmək lazımdır?**

Qrip əksər insanlar üçün bir neçə gün və ya bir həftə ərzində öz-özünə yaxşılaşan bir xəstəlikdir. Ancaq bəzi hallarda qrip ciddi fəsadlara səbəb ola bilər və tibbi yardım tələb edir. Xroniki xəstəlikləri olan şəxslər, xüsusilə yüksək hərarət və nəfəs darlığı kimi simptomları olanlar daha çox risk altındadır. Belə simptomlar baş verdikdə, gecikmədən həkimə müraciət etmək həyati əhəmiyyət kəsb edir. Ümumilikdə, yüksək hərarət və nəfəs darlığı kimi ciddi simptomlar olduqda və xroniki xəstəlikləri olanlarda ağırlaşma riski olduqda mütləq həkimə müraciət edilməlidir.

# Tənhalıqdan qurtuluş

## Orxan Pamukun "Qara kitab" romanı haqqında

Təxminən əlli il bundan qabaq Orxan Pamukun roman yazdığını eşidən bir qohumu ondan təəccüblə soruşmuşdu: "Sən axı kənd həyatını bilmirsən, romanı necə yazacaqsan?"

Zaman o zamandı ki, Türkiyə ədəbi mühitində, Pamukun təbiriylə desək, dastançılar meydan sulayırdılar, Orxan Kamal, Yaşar Kamal, Fakir Baykurt, Bəkir Yıldız kimi adlısanlı yazıçıların sosial-gerçəkçi romanları, Əziz Nesinin yüksək əyarlı kəskin ictimai-siyasi satira hopdurulmuş kitabları əl-əl gəzirdi, sosial həyatın dibindən, yoxsul təbəqənin güzəranından xəbərsiz qələm əhlinin yazıçılığı şübhə doğururdu, kütlənin bədii-estetik menyusunda çılpaq, sərt realizm dominant yer tuturdu. Doğrudur, bu arada Əhməd Həmdi Tanpınar, Yusif Atılqan, Oğuz Atay kimi yazıçıların sayəsində modernist nəsrin də parlaq örnəkləri yaranmışdı, ancaq modernizmin türk ədəbiyyatında aparıcı cərəyana çevrilməsinə hələ vardı...

İstanbulun göbəyində varlı burjua ailəsində böyümüş Orxan Pamuk şəhərli balası olsa da, yaradıcılığa sosial qayğılara biganə snobist ədayla, ictimai dərdlərə laqeyd modernist üslubla yox, ustadı Tomas Mann sayaq tənqidi-realist tərzdə yazdığı (kənd həyatından bəhs eləməsə də) sosial-epoxal dastan deyilən roman tipiylə başlamışdı. İyirminci əsrin düz əvvəlində Tomas Mannın "Buddenbroklar" dastanından başlanan bu ənənə Con Qolsuorsinin "Forsaytlar dastanı", Roje Marten dü Qarın "Tibo ailəsi", Maksim Qorkinin "Artomonovların işi" əsəri kimi çoxplanlı, çoxşaxəli, çoxbölümlü romanlarla davam eləyib, ta əsrin son rübündə Orxan Pamukun bir ata uşağının üç arxa dönənindən danışan, onların keçdiyi həyat yolunu izləyən "Cövdət bəy və oğulları" adlı üç bölümlük nəsilkök romanıyla başa çatmışdı. Bu romanı mütəxəssislər Pamuk yaradıcılığının sosial-gerçəkçi, tənqidi-realist mərhələsi sayırlar.

Eynən Tomas Mann kimi Orxan Pamuk da çox erkən zəbt elədiyi bu zolaqda ilişib qalmadı, yeni həqiqətlər ardınca yeni mərhələlərə adladı. Ədəbiyyatşünaslar "Səssiz ev" adlı növbəti romanını yazıçının modernizm ərazisində dayanacağı, "Bəyaz qala"nı modernizmdən postmodernizmə keçid zolağı, dördüncü romanı "Qara kitab"ı isə janrın bütün tələblərinə mükəmməl cavab verən postmodern roman örnəyi sayırlar. Bu romanla Pamuk sözün tam mənasında dünya çaplı yazıçıya çevrildi, "Qara kitab" özündən sonra gələn "Mənim adım qırmızı", "Qar", "İstanbul", "Məsumiyyət muzeyi" kimi şedevrləri də yedəyinə alıb, müəllifini türk ədəbiyyatı tarixində ilk dəfə Nobel mükafatının tribunasına qədər müşayiət elədi.

***

Roman iki bölüm, otuz altı fəsildən ibarətdir; fəsillərdən on doqquzu birinci, on yeddisi ikinci bölümün payına düşür. Hər bölmənin ikinci fəsli, yəni cüt fəsillər əsərin adını eşidib üzünü görmədiyimiz qəhrəmanı Cəlal Salikin köşə yazılarıdır (fəqət son bir neçə köşəni onun adından romanın ana personajı Qalib yazır). Köşələrdən hər biri süjeti, mövzusuyla müstəqil yazı olsa da, ideya-məzmun baxımından hamısı bir məntiq sapına düzülüb, hamısının bir məğzi, leytmotivi var: özünü axtara-axtara başqasının təqlidçisinə, yaxud da başqasına çevrilmək, özgələşmək, yaxud da özgəsiləşmək.

Sonuncu iki sözü bir-birindən ona görə ayırıram ki, fikrimcə, fəlsəfi-psixoloji baxımdan "özgələşmə" anlayışıyla "özgəsiləşmə" anlayışını eyniləşdirmək olmaz. Özgələşmə, məsələn, Fixte, yaxud Hegel fəlsəfəsində varlığın özünə yadlaşması, özünü özündən uzaqlaşdırması (üstəlik, özündən gedəndən sonra özünə qayıtmağa, yenidən özü olmağa can atması) kimi başa düşülür. Ekzistensialist filosoflar özgələşmə deyəndə fərdin öz mahiyyətindən ayrı düşməsini, özünə yabançılaşmasını, cəmiyyətin diktəsi altında, başqalarının istədiyi kimi davranmasını nəzərdə tuturlar. "Özgəsiləşmə", "başqasılaşma" anlayışı altında isə mən buna tərs prosesi - insanın başqasına çevrilmək arzusunu, öz idealında təcəllasını, məhəbbətinin obyektində əriyib itməsini ifadə eləməyə çalışmışam. Platondan üzübəri məhəbbət anlayışının klassik idealist düsturu budur...

Pamuk bu romanı 1985-ci ildə - İsa Məsih yaşına çatanda yazmağa başlayıb, özünün deməsinə görə, məhz bu əsəri yaza-yaza sənətdə öz səsini, dəst-xəttini tapa bilib. Əsərin baş qəhrəmanı advokat Qalibin də otuz üç yaşı var. Həyat yoldaşı Röya onun Melih əmisinin ikinci arvaddan olan qızıdır. Əməoğlu-əmiqızı uşaqlıqdan bir yerdə böyüyüblər, bir məktəbə gediblər. Qalib əmisi qızını yeniyetmə çağlarından sevsə də, detektiv romanlar həvəskarı Röya Qalibə qədər bir dəfə ərdə olub. Melih əminin birinci arvaddan doğulmuş böyük oğlu, Röyanın ögey qardaşı, Qalibin pərəstiş obyekti, Salik təxəllüslü Cəlal isə "Milliyyət" qəzetinin köşə yazarıdır, onun prototipinin məşhur jurnalist Çətin Altan olduğu söylənir: "Türkiyədə indinin özündə də köşə yazarları həddsiz çox oxunur, Pamukun gənclik dövrü isə bu ölkədə köşə yazarlarının əcdadlarından sayılan Çətin Altanın parladığı illərə təsadüf edir. Sonradan "Ötəki rənglər" kitabında Pamuk onun haqqında bir esse də yazıb. Cəmiyyətin köşə yazarlarına sonsuz sevgisi imkan verib ki, Pamuk bunu romanının malına çevirsin". (Qismət Rüstəmov)

***

Bir qış səhəri yuxudan oyananda Qalib arvadı Röyanı yanında görmür. Qadın ərinə on doqquz sözlük (niyə məhz on doqquz?) bir məktub yazıb qoyub qeybə çəkilir. Məktubun məzmunu oxucuya açıqlanmır.

Bundan sonra Qalib İstanbulun canına düşüb Röyanı axtarır. Bütün roman bu qəribə axtarışın təfərrüatı üzərində qurulub. Qalib sevgilisini axtara-axtara öz ömrünə, keçmişinə səyahətə çıxır, Cəlalın yazdıqlarına, dolayısıyla onun düşüncələrinə, taleyinə, mənəvi dünyasına baş vurur, Röyanı tapmaqdan ötrü əmisi oğlunun yazılarındakı gizli şifrələri çözməyə çalışır, sözün hərfi mənasında İstanbulun altından vurub üstündən çıxır, şəhərin tarixi yaddaşına dalır, bir sözlə, öz axtarışına qoynunda böyüdüyü bütün dünyanı cəlb eləməyə çalışır. Bu da yəqin ona görədir ki, Röyanın er-gec ələk-vələk elədiyi o dünyanın içindən çıxacağına inanır.

Ancaq başqa səbəb də ola bilər: quruca bir saman çöpünün belə kökünə, əslinə, mahiyyətinə varmaq istəsək, gərək bütün dünyanı, kainatı ovcumuzun içinə yığa biləк. Bəlkə advokat Qalib də hansısa bir universal məntiqə, mənəvi imperativə tapınıb, hüquqi kazusa söykənib, Röyanı asan üsulla tapmaq istəmir, qadını kainatın mərkəzinə qoyub, ona aparan yolları, labirintləri birbir keçməyə, əngəlləri, manеələri bir-bir aşmağa can atır. Hər nədirsə, Qalibin axtarışı çox vaxt itkin gəlini axtarmağa da oxşamır. Romanı oxuduqca adama elə gəlir Qalib arvadının tapmaqda elə də maraqlı deyil, o, Röya bəhanəsiylə özünü gəzir, öz taleyini, gerçək təyinatını arayır, Cəlalın qapalı dünyasına yol axtarır.

davamı növbəti sayımızda



**F.UĞURLU**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# ŞƏNBƏ ÜÇÜN NƏZM









*Qismət Rüstəmovun şeirləri*

## Mətbəxtlik

Bir qadın var hardasa
tələsir mətbəxə, dükana, işə
gözləri razılaşmaq dilində susur həmişə.
Metroda əlləri yaxasına,
çantası dizlərinə səngər...
Bir qadın var hardasa
xoşbəxtlikdən sinifdən qalan,
ciyəri qayğılara qurban
mətbəxə zəncirli Prometaya...
Bir qadın var hardasa
sevmədiyi kişiyə arvad,
sevdiyinə çin səddi.
Bir qadın var hardasa
qara günlərin qırmızı diplomlusu,
iki uşaq anası.
Hər şeyi yerindədi
əri, uşaqları, şubası,
biş-düşü.
Bir qadın var hardasa
kibrit çöpündən tez sönür gülüşü...
Bir qadın var hardasa
qadın deyirəm sizə
gecələr ağlar səssizcə
haram qatar yuxusuna.
Ağlar bir qırmızı qalstukun xorultusuna,
qara bir kostyumun tütün qoxusuna,
ağlar yatağındakı üzütəraşlı
HEÇ KİMƏ.
Bir qadın var hardasa
soruşsan xoşbəxtsənmi?
bədbəxtəm deməz
deyər: çox mətbəxtəm...

## Sirenalar üçün

Əvvəlcə axşam düşər,
sonra mənim ürəyim...
Küləklər dənizlərin üzünü qırışdırar.
Qapını cırmaqlayar
səni görmək istəyim,
Səbrimin pişiyini divara dırmaşdırar.

Əllərimi yandırar soyuq, quru fotolar
Axtararam, tapmaram
otağımda ölməyi...
Külqabıda dəfn olar siqaretlər, qutular,
Qədəhlərə boşalar şüşələrin ürəyi.

Mən bu sevgi testini
istəmirəm yoxlayım,
Qorxuram üç doğrunu silər yanlışın biri.
Başın çiynimdə yoxdu,
səni necə qoxlayım?
Əllərimdə darıxır əllərinin boş yeri...

Mən bir az öz-özümdən,
bir az səndən gedirəm
Mən hamıdan gedirəm
gəlib sənə çıxmağa...
Hər səhər darıxmağı
parça-parça edirəm,
Hər gecə qandallanır
ürəyim darıxmağa...

əvvəlcə axşam düşür,
sonra mənim ürəyim...

## Olmur

Daha son ümidə ümid qalmayıb,
Qalsa yollarına baxardım, olmur...
Soyuq əllərimi üzük yerinə,
Qaynar əllərinə taxardım, olmur...

Yanında, elə bil, yersiz qonağam,
Mən sənə günaham, suçam, yasağam.
Sən güllə deyilsən, mənsə qorxağam...
Səni öz başıma sıxardım, olmur...

Neyləyək olmadı, çatmadı gücüm,
Elə bil tutmadı bürcünlə bürcüm.
Səni ürəyimdən çıxarmaq üçün,
Gərək ürəyimi çıxardım, olmur...

***

Əlləri su damlası, boynu uzun
Yelena,
Səsin mənə mükafat, gözün hüzn
Yelena,
Şeir oxu soyuqda, sözlə qızın,
Yelena,
Qızınmasan yandır ki, qızınasan
birtəhər,
Yoxlamışam, Yelena, yaxşı yanır
şeirlər...
Sən bilərsən, yıxıldım, yoxsa daş
kimi düşdüm ? Düşdümsə də ölmədim,
çünki
çoxdan ölmüşdüm.
Sənsiz keçən günlərin
var-yoxunu... demişdim,
Qəzəbimi boğuram, çox
getmirəm dərinə, Nə istəsən yaz getsin
nöqtələrin
yerinə...
Maşınlar ötüb keçir, dönər alır
uşaqlar,
Dişlərini ağardır yazılmamış
varaqlar,
Yoxluğundan tikilib bütün evlər,
otaqlar,
Mən sənin yoxluğuna
mühacirəm, Yelena,
Nə düşünsən haqlısan,
müqəssirəm, Yelena.

Məlikməmmədin quyudan üçüncü qıza yazdıqları

Zalım qardaşların yamanlığından,
İçimi yeyirəm gün boyu, ay qız.
Bir qadın bətninin qaranlığından,
Daha qaranlıqdı bu quyu, ay qız.

Divi almalıqda güddüyüm təki,
Yuxulu gözlərlə açılır səhər.
İndi mən yarama duz basıram ki,
Səni fikirləşim səhərə qədər.

Bu quyu kəsilmiş kəndir qoxuyur...
Qanayır köksümə batan xəyanət...
Sükut bu quyuda zildən oxuyur...
Burda ümidsizlik hər gün nəqərat...

İndi yorğun canım özümə sərhəd,
Yalandan deyirəm vecinə alma.
Mənə deyən lazım, ay Məlikməmməd,
Sevməli yaşında nə div, nə alma?..

"Qu" - dedim, quyuya atdılar məni,
"Qa" - dedim, qardaşlar qayıtmadılar...
Gedib yuxu kimi yatdılar məni,
Sonra bir-birini ayıltmadılar.

Burda sənsizlədim, gümanım itdi...
Adamlar quyunu daşladı, ay qız.
Cavanlıq içimdə çürüdü getdi,
Qocalıq içimdən başladı, ay qız.

Quyuya hər gecə gümüş ay qonaq...
Hər gecə quyuya ulduzlar axır...
Quyu-durbiniylə münəccim torpaq,
Mənim gözlərimdən göylərə baxır...

Qara xatirələr ağlanan kimi,
Çoxaldı quyuda sənin azlığın...
Ümidin gözləri bağlanan kimi,
Açıldı gözləri adamsızlığın...

Kaş külək olaydım, adam yox, külək
İndi mənim üçün külək - azadlıq...
Nə vaxtsa demişdin ağ qoç gələcək,
Min ilmi keçibdi?
Bilmirəm artıq...

Qaranlıq, tənhalıq, soyuq və gecə...
Biryolluq gediblər bütün gedənlər...
Ədalət kəsilmiş kəndirdi məncə,
İndi padşahdılar kəndirkəsənlər...

Burda can verirəm, ölmürəm, ay qız,
Bu quyu ümiddən, ölümdən kasıb...
Min ildi anlaya bilmirəm, ay qız,
Mənim bu nağılda nə divim azıb?!

Yaman üşüyürmüş adam adamsız,
Adamsız duyurmuş adam zamanı...
Canı şüşədəymiş divlərin, ay qız,
Bu quyu şüşədi, mənsə div canı...

Bir simurq lələyi yandır bu gecə,
Yoxdu bu quyuya gedib qayıdan...
Bu şüşə quyunu sındır bu gecə,
Mənim div canımı çıxart quyudan.

Göylərə baxıram ulduz sürüşmür...
Ölmürəm, uzanır bu dəhşət, ay qız.
Mənə üç almadan bir alma düşmür,
Yoxmuş bu nağılda ədalət, ay qız...

## Alman hesabı

o gün, hə, o gün
sən dodağında qırmızı qətiyyət,
əynində "qadın hüquqları və qaşqabaq"
gəlmişdin görüşə,
mən boğazıma qara bir ciddiyət taxıb,
təraş olub,
bəyəndiyin ətirdən də vurmuşdum.
O gün idi, hə, o gün
13-ü cüməyə düşmüşdü,
"Araz" kafesində ayrılmaq
üçün görüşürdük,
Azərbaycan kimi...
ofisiant,
bizi görən kimi öskürmüş,
sifətinə gülüş, dilinə hazır rusca sözlər
geyinib
gəlmişdi yanımıza.
Mən "Günah anandadı!" salatı ,
yanında "Sən məni başadüşməzsən"
qızartması istəmişdim.
Sən "Özün bilərsən" şorbası demişdin,
bir də "Mən yaxşı yaşamaq istəyirəm"
püresi.
Sükutun qədəhinə
qırmızı, kəmturş ittihamlar
süzülən kimi,
hörmət quşunun boğazı üzülən kimi,
hesabı istəmişdik.
O gün, hə, o gün,
13-ü cüməyə düşmüşdü
Ucuz bir ayrılığın hesabını ödəmişdik
alman hesabı.
Sən masadan
"Sənə qalmamışam" deyərcəsinə
çantanı götürüb
getmişdin.
Mənsə addımlarımın
saatını çox geri çəkmişdim,
amma qürurumdan,
- çinarlara qohum qürurumdan-,
sən bir Meduza kimi uzaqlaşarkən,
dönüb baxmamışdım arxanca.
arada düşünürəm o günü:
dönüb baxmışdınmı arxamca?
Baxmışdınsa axı nədən
o gün o küçədə
bircə heykəl vardı,
Nizaminin heykəli.

## Dönüb görərsən ki...

Bir də görərsən ki, qəti alınmır...
Səni gecələrin zülməti çəkər,
Dodağın bir öpüş həsrəti çəkər.
Yanar dodağında bir dodaq yeri
Lap elə mən ölü, sən də ki, diri.

Qabları yuyarsan, çörək alarsan,
Görərsən könlünün simi tarımdı.
Amma bilməzsən ki, niyə yarımsan,
Bilməzsən evində nəyin yarımdı...
Könlünə qəfil bir qayıtmaq düşər,
Birdən başlayarsan lap darıxmağa...
Dönərsən gəldiyin yola baxmağa,
Qəhər boğazında ilişər qalar,

Dönüb görərsən ki, divardı yollar,
Dönüb görərsən ki, yol çıxıb gedib...

## Şərt

Qoca şəhər yatıbsa, saat üçü keçibsə,
Darıxanlar ordusu səni başçı seçibsə,
Baş götürüb qaçıbsa gözlərinin yuxusu,
İçini yandırırsa kimsəsizlik duyğusu,
Yenə küləklər kimi sərsərisənsə əgər,
Kədər satan gecəyə müştərisənsə əgər,
Bir fotonun önündə
yüz fikrə getmisənsə,
Dözməyin köynəyini
min tikə etmisənsə,
Asta yağış yağırsa, it hürürsə küçədə,
Küləklər daha əsmir,
sənə köks ötürürsə -
Sən yığan nömrələri bu qəribə gecədə,
Eləcə təkrar-təkrar Səssizlik götürürsə -
Gözlərin sulanırsa təkliyin zülmətində,
Ürəyin sıxılırsa, dözürsənsə birtəhər -
Bu çarəsiz gecədə külqabı dövlətində,
Siqaret soyqırımı törədirsənsə əgər -
Buludların eşqinə, küləklərin xətrinə,
İşığı tükənməyən ürəklərin xətrinə,
Yaxın otur, qulas as:
Bir it hürür küçədə, səsi düşür gecəyə,
Elə bil ki, darıxır, kömək istəyir,
kömək.
İstəyirəm boylanım pəncərədən
küçəyə,
Bir ağız da mən hürüm, darıxmasın o
köpək...

## Getməyin qeyri-mümkünlüyü

Adam getdiyi yerə özünü də aparırsa,
demək, getmək qeyri-mümkündü
əslində;
gerçək olan yalnız yerdəyişmədi -
A nöqtəsindən B nöqtəsinə.

Adam nə qədər təklənir təklənsin
həyatda,
özünə deməyə bir-iki kəlməsi varsa,
bir-iki həqiqəti,
yəni ürəyiylə danışa bilirsə, vəssalam,
kim nə deyir-desin, boş verməli...

Adam yolları bağlananda,
topuğu qanayanda,
toxtaq ola bilirsə, keçmirsə qürurundan,
bir başı kəsiləndə,
min baş çıxara bilirsə Ximera kimi,
min qılınc parıldasın,
min xəncər itilənsin, vız gələr.

Adam sərin bir yaz gecəsi
küçəyə baxanda,
düşünəndə ötənləri, damağında
sonuncu siqaret,
xatırlayanda ölülər izdihamına
qarışan dostları,
birdən çox adi şeyləri yenidən
başa düşür...

## Nəsə elə...

Kompüter yanında kaktus kimisənsə
çoxdandı,
telefonun susursa Qraham Belin səsiylə,
teleseriallar ağlada bilmirsə daha,
saatlı bomba ürəyilə döyünürsə
divar saatında vaxt,
darıxma, sıxılma, üzülmə.
Nəsə elə, dostum, nəsə elə...

Pəncərələri aç, pəncərələri,
burax günəş ayaqqabılı keçsin içəri;
pencəyini küləyə bağışla,
çətirini yağışa...

Sərçələrin səsi öpsün divarların
dodaqlarını,
uşaqların gülüşü öpsün.
Bu gün yeməyi özün qızdır,
çayı özün dəmlə,
ütünü köynəyin bağrına
özün sıx bu dəfə,
Gülümsə hamıya, gülümsə!
Darıxma, sıxılma, üzülmə...

Bir şeir yaz, əzbərlə, dənizə get,
şeir pıçılda dənizin qulağına,
şeir pıçılda...
Hərəniz bir siqaret yandırın:
sən və dəniz.
Sən burnundan burax tüstünü,
dəniz uzaqlardakı gəmilərin
borularından.
işığında şeir yazmağa bir-iki ulduz al
gecədən.
Bir mahnı saxla həmişə dilinin altında
zümzümə elə,
gülünməmiş lətifələr tap dostlarınla
gülməyə.

Nəsə elə dostum, nəsə elə...
Darıxma, sıxılma, üzülmə...

*İdman*

# Volkan Dəmirəl "Qarabağ"haqqında danışdı

"Qarabağ"ın oyunlarını izləyirəm və ümumilikdə, çox uğurlu çıxış etdiklərini deyə bilərəm.

Bu sözləri AZƏRTAC-a eksklüziv müsahibəsində Volkan Dəmirəl deyib.

O, Ağdam təmsilçisinin yaxşı formada olduğunu bildirib: "Bəzi oyunçularını diqqətlə izləyirəm və onlara gələcək matçlarda da uğurlar arzulayıram. Qarşıdakı görüşlər çətin olacaq, amma komandanın potensialı yüksəkdir və yaxşı nəticələr gözləmək olar".



Mütəxəssis Azərbaycan çempionunun heyətində bəyəndiyi futbolçuların da adlarını çəkib: "Xüsusilə Kevin Medinaya diqqət yetirirəm. Onu 2-3 il əvvəl izlədim və çox yaxşı müdafiəçi olduğunu gördüm. Nəriman Axundzadə isə son iki ildə komandaya həm çoxlu qollar, həm də vacib nəticələr qazandırıb. Onun çıxışını da yüksək qiymətləndirirəm. Bu oyunçuların həm fərdi, həm də komanda üçün böyük əhəmiyyəti var".

Qeyd edək ki, Volkan Dəmirəl Türkiyə millisində və "Fənərbağça"dakı uğurlu çıxışı ilə tanınır.

# "Sabah" diqqət mərkəzində

FIBA Çempionlar Liqasının qrup mərhələsində keçirilən oyunlardan birində fərqlənən epizod beynəlxalq basketbol ictimaiyyətinin diqqətini cəlb edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanı turnirdə təmsil edən "Sabah"ın basketbolçusu Hassani Qravett Çexiyanın "Nimburk" komandası ilə matç zamanı nümayiş etdirdiyi texniki ustalıqla yadda qalıb.

Görüşün gedişində Qravettin etdiyi yüksəksəviyyəli spin-move (hərəkətlə fırlanma) epizodu oyunun ən yaddaqalan anlarından birinə çevrilib. Sözügedən hərəkət Avropanın ali basketbol qurumu olan FIBA tərəfindən Çempionlar Liqasının rəsmi instaqram hesabında paylaşılaraq, qısa müddət ərzində milyonlarla baxış sayı toplayıb və azarkeşlər tərəfindən böyük marağa və müzakirəyə səbəb olub. Video qısa müddət ərzində 3 milyona yaxın baxış, 60 minə yaxın bəyənmə toplayaraq, basketbol ictimaiyyətinin diqqətini üzərinə çəkib.



Hassani Qravett 2 ildir üçqat Azərbaycan çempionu "Sabah"ın heyətində çıxış edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4527**
**Sifariş: 74**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova